www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 oktyabr 2017-ci il Cümə axşamı № 221 (6835) Qiyməti 60 qəpik

**Xəbər**

## Şirvanda avtobus jurnalisti vurub öldürdü

yazısı səh.2-də

**Gündəm**

### YAP-çı deputatın mandatı alına bilər-korrupsiya ittihamı ciddiləşir




Antikorrupsiya idarəsinin rəisi sabiq rektor Şəmsəddin Hacıyevin istintaqı və ifadəsinin alınması barədə nələr dedi?

yazısı səh.6-da

### Büdcə təşkilatlarından mitinqdə iştirak edənlər yenə cəzalandırılacaq

yazısı səh.5-də

### Azərbaycan-Afrika əməkdaşlığı - ixrac edəcəyimiz məhsullar üçün yeni bazar

yazısı səh.3-də

### Avtomobilə qoyulmuş bombanı necə aşkarlamalı...

yazısı səh.12-də

### "Yaxın 20 ildə neft istehlakı artacaq"-BP-dən açıqlama

yazısı səh.5-də

### Dustaqların qaçmasına görə Penitensiar Xidmət 11 işçisini cəzalandırdı - 4 konvoy həbs olundu

yazısı səh.6-da

### Saakaşvilinin Ukraynada başlatdığı çadır dövrü - şou, yoxsa....

yazısı səh.7-də

### Terror düşərgələrindən geri dönən İŞİD üzvləri dünyanı təhdid edir

yazısı səh.9-da

### SSRİ-ni çökdürən xalq cəbhələrinin taleyi...

yazısı səh.10-da

### Bank sektorunu böhrandan çıxarmaq üçün yol xəritəsi hazırlanır

yazısı səh.13-də

### "Sərkisyan Moskvanın kuklasıdır" - politoloq

yazısı səh.11-də

## Abbasovların yeni mesajı - şifrəli foto

# ABBAS ABBASOV VƏ OĞLU PUTİNİN ADAMINA SIĞINDI

Sabiq vitse-primyerin Dağıstandakı biznesinə ciddi zərbə - VİP binanın tikintisi dayandırılıb; Rusiya prezidentinin Xəzər regionundakı yeni nümayəndəsi ilə fotolarını yayan Abbasovlar nəyə işarə ediblər?; Onların seçki ilində Kremlə lazım olub-olmadıqları tezliklə bilinəcək...




yazısı səh.5-də

## Ermənistanın blokadasına Gürcüstan da qoşulur - düşmən şokda

İşğalçı ölkənin daha bir qorxulu "röyası" çin olur; **gürcü politoloq:** "Ermənistan dünya iqtisadiyyatına qovuşmaq istəyirsə..."

yazısı səh.8-də



**İlqar Məmmədov üçün verilən vaxt başa çatdı; gözlər Avropada**

yazısı səh.4-də



*Mahmud Məmmədquliyev:*
**"AŞ-da qalmalı və mövqelərimizi müdafiə etməliyik, Azərbaycanın oradakı fəaliyyətinə heç kim mane ola bilməz"**

yazısı səh.7-də



*Etimad Əsədov:*
**"Heç olmasa, bizə yaxşı bir yerdə qəbiristanlıq üçün yer ayırsınlar"**

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 221 (6835) 26 oktyabr 2017



## Prezident Goranboyda yol tikintisinə 5,7 milyon manat ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev Goranboy rayonunun Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, 15 min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun tikintisi məqsədi ilə 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,7 milyon manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

## Özbəkistan prezidenti 20 il sonra Türkiyəyə səfər etdi

**Özbəkistan prezidenti Şavkat Mirziyoyev Türkiyəyə rəsmi səfər edib. APA-nın "Milliyetə istinadən verdiyi xəbərə görə, Ş. Mirziyoyev Ankarada türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla görüşəcək.**

Qeyd edək ki, Özbəkistan prezidenti 20 il sonra ilk dəfə Türkiyəyə səfər edib.

## Gələn il Milli Məclisə 24 milyon manat ayrılacaq

**Növbəti il Azərbaycan Milli Məclisinə (MM) ayrılacaq vəsaitin həcmi müəyyənləşib. "Report"un xəbərinə görə, bu, 2018-ci il dövlət büdcəsi layihəsində əks olunub.**

Gələn il MM-ə 24 milyon 232 min 55 manat vəsait ayrılacaq.

Bu rəqəm 2017-ci ildə ayrılan vəsaitdən 530 min 699 manat çoxdur.

Qeyd edək ki, bu il MM-ə 23 701 356 manat ayrılıb.

## "Yerdə baş verən geomaqnit qasırğası güclü qasırğalardan deyil" - Elçin Babayev

**Yerdə baş verən geomaqnit qasırğası mütəmadi təkrarlanan orta səviyyəli qasırğalardan biridir. APA-nın xəbərinə görə, Azərbaycan Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanasının direktor müavini Elçin Babayev bildirib ki, sabah qasırğa yenidən əvvəlki vəziyyətinə qayıdacaq.**

Onun sözlərinə görə, bu, heç də deyildiyi kimi, güclü qasırğalardan deyil, mütəmadi təkrarlanan orta səviyyəli qasırğalardan biridir.

E. Babayev qeyd edib ki, hazırda Günəşdə baş verən proseslər nəticəsində geomaqnit şəraitdəki növbəti həyəcanlaşmalar davam edir. Direktor müavini qeyd edib ki, həyəcanlaşma dünəndən etibarən başlayıb və verilən proqnoz özünü doğruldub: "Artıq G1 kateqoriyasına malik olan geomaqnit qasırğası baş verib.

Gün ərzində bu qasırğanın G2 kateqoriyalı qasırğaya keçməsi gözlənilir.

Həm günəşdə, həm yeratrafı fəzada, həm də yer monitosferində baş verən mürəkkəb proseslərin analizləri nəticəsində bu qənaətə gəlinir. Hazırda Kp indeksi 5-ə bərabərdir. Bu indeksin maksimal qiyməti 9-a bərabər olur. Maksimal balın isə qeydə alınması nadir hallarda baş verir. Bu, günəşin məşhur 11 illik tsikli dövründə yalnız bir-iki dəfə baş verib".

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01,**

# "Azərbaycan yeni neft müqaviləsini əvvəlki müqavilədən daha üstün şərtlərlə imzalayıb" - Valeh Ələsgərov

**Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin növbəti iclası keçirilib.**

MM-dən APA-ya verilən məlumata görə, iclasda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Dövlət Neft Şirkəti ilə Azərbaycan (ACG) Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Şevron Xəzər LTD, Ekson Azərbaycan Limited, İndeks Sausvest Kaspian Si, İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk., ONGC Videş Limited, Statoyl Abşeron AS, Türkiyə Petrolleri A.O. arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə dair" qanun layihəsi müzakirə edilib.



Komitə sədri Valeh Ələsgərov sənədin şərhi zamanı bildirib ki, yenilənmiş saziş bu il sentyabrın 14-də Bakıda imzalanıb. Görülən işlərin nəticəsi kimi indiyədək podratçı tərəflər mənfəətlərindən 14,4 milyard dollar mənfəət vergisi ödəyib. Dövlət Neft Şirkətinin törəmə şirkəti podratçı tərəf olaraq mənfəət neftinin satışından 5,9 milyard dollar qazanıb. Müqavilə şərtlərinə uyğun olaraq texnoloji tələbat üçün istifadə olunmayan 41,7 milyard kubmetr həcmində səmt qazı ötürülüb. Mövcud məlumata görə, adıçəkilən yataqlarda ən azı 500 milyon tona yaxın çıxarıla biləcək neft ehtiyatı var.

Qeyd olunub ki, müqavilənin əvvəlki müddəti 2024-cü ilə qədər olduğundan qalan 7 ildə hasilat aşağı düşəcəkdi. Bu hasilatı isə sonradan bərpa etmək çox çətin olacaqdı. Ona görə də müqavilə müddətinin uzadılması, yenilənməsi çox uzaqgörənliklə atılmış bir addımdır.

V. Ələsgərov deyib ki, Azərbaycan dövləti və Dövlət Neft Şirkəti yenilənmiş müqaviləni bundan əvvəlki müqavilədəki şərtlərdən də üstün şərtlərlə imzalayıb. Dövlət Neft Şirkətinin danışıqlar nəticəsində daha üstün, əlverişli şərtlər əldə etməsində əsas amillərdən biri həm neft, həm də qaz sahəsində artıq heç bir riskin olmamasıdır. Bunun üçün də həmin xarici investorlar Azərbaycana hər il 450 milyon dollar olmaqla, 8 il bonus ödəyəcəklər.

Çıxış edən Kamran Nəbizadə, Rövnəq Abdullayev, Mirkazım Kazımov, Mirzəcan Xəlilov, Mixail Zabelin sənədin əhəmiyyətini vurğulayıblar. Qeyd olunub ki, bu müqavilə Azərbaycan dövlətinin və xalqının maraqlarına cavab verməklə, ölkənin inkişafını daha da sürətləndirəcək, siyasi və iqtisadi qüdrətini möhkəmləndirəcək.

**Müzakirələrdən sonra saziş təsdiqlənməsi üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.**



## Keçmiş "OMON"çu Elçin Əmiraslanov iflic oldu

**Vəkil Elçin Sadıqov Penitensiar Xidmətin Qobustanda yerləşən həbsxanasında saxlanılan ömürlük məhkumlar, keçmiş "OMON"çular - Elçin Əmiraslanov, Səfa Poladov və Arif Kazımovla görüşüb.**

APA-nın məlumatına görə, Elçin Sadıqov bildirib ki, Elçin Əmiraslanovun sol tərəfi iflic olub, sol qolunu hərəkət etdirə bilmir, son vaxtlar epilepsiya qıcolmaları artıb. Vəkil deyib ki, həbsxanada saxlanıldığı dövrdə hepatit C virusuna yoluxan məhkuma lazımi tibbi xidmət göstərilmir, Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçürülmür.

Onun sözlərinə görə, Səfa Poladov və Arif Kazımovun da səhhətləri pisdir, həbsdə olduqları müddətdə dəfələrlə əməliyyat olunublar, hazırda ağır dərəcəli şəkərdən əziyyət çəkirlər.

Qeyd edək ki, hər üç şəxs 1996-cı ildə məhkəmənin hökmü ilə ölüm cəzasına məhkum edilib. Sonradan onların cəzaları ömürlük azadlıqdan məhrumetmə ilə əvəz olunub.

Onlar Qaradağ rayon Məhkəməsinə etdikləri müraciətdə cəzalarının 20 illik həbslə əvəz edilməsi və azadlığa buraxılmalarını istəyiblər. Lakin məhkəmə müraciəti təmin etməyib.

## Hicab məhbusunun həyatı təhlükədədir



**13 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən, siyasi məhbuslardan sayılan Xalid Kazımovun səhhətində ciddi problemlər yaranıb. Musavat.com-un məlumatına görə, yaxınları Cenubpress internet nəşrinə bildiriblər ki, artıq Xalidin gözləri tutulmaq üzrədir. O, həmçinin, öd kisəsindəki ağrılarından yata bilmir.**

Məhbusun yaxınları hüquq müdafiəçilərindən və jurnalistlərdən kömək istəyir.

Xatırladaq ki, Masallı dindarlarından olan Xalid Kazımov 2012-ci ilin sentyabrında Masallı rayonunda, beynəlxalq folklor festivalı ilə bağlı etiraz tədbiri zamanı saxlanılıb və əsassız ittihamlarla 8-il azadlıqdan məhrum edilib.

## Azərbaycan gələn il mis hasilatını kəskin artıracaq

**Gələn il Azərbaycanda 5 471,5 kq qızıl filiz və konsentratının hasil olunacağı proqnozlaşdırılır. Bu da 2017-ci ilin proqnozu ilə müqayisədə 3% artım deməkdir. Musavat.com report-a istinadan xəbər verir ki, bu barədə İqtisadiyyat Nazirliyinin 2018-ci il və sonrakı 3 il üzrə iqtisadi proqnozlar göstəricilərinə istinadən xəbər verir.**

Qızıl hasilatının 2019-cu ildə 5 635,7 kq (2017-ci ilin proqnozu ilə müqayisədə 6,1% çox), 2020-ci ildə 5 804,7 kq (2017-ci ilin proqnozu ilə müqayisədə 9,3% çox) və 2021-ci ildə 5 978,9 kq (2017-ci ilin proqnozu ilə müqayisədə 12,6% çox) olacağı gözlənilir.

Proqnoza əsasən, gümüş hasilatı isə qarşıdakı 4 ildə 2017-ci ilin proqnozu ilə eyni səviyyədə qalacaq. Belə ki, 2017-2021-ci illərdə hər il 355 kq gümüş filiz və konsentratı hasilatı proqnozlaşdırılır.

Mis filiz və konsentrat hasilatında isə 2018-ci ildə ciddi artım nəzərdə tutulub. Belə ki, 2018-ci ildə 4 466,0 kq mis hasilatı proqnozlaşdırılır ki, bu da 2017-ci illə müqayisədə 80,6% çoxdur. 2019-2020-ci illərdə hasilatın eyni səviyyədə qalması, 2021-ci ildə artaraq 5 987,9 kq təşkil edəcəyi gözlənilir.



## Şirvanda avtobus jurnalisti vurub öldürüb

**Şirvan şəhərində piyadanın ölümü ilə nəticələnən yol qəzası baş verib. APA-nın Mil-Muğan bürosunun xəbərinə görə, Şirvan şəhəri Heydər Əliyev prospektində, SOCAR-a məxsus, 90 JS 409 dövlət nömrə nişanlı avtobus yolu keçən Şirvan sakini, 1956-cı il təvəllüdlü Məmmədli Səxavət Musa oğlunu vurub.**

Xəstəxanaya çatdırılan S. Məmmədli orada dünyasını dəyişib.

S. Məmmədlinin əvvəllər "Ədalət", "Təzadlar" və "Həftə içi" qəzetlərində işlədiyi bildirilir.

## DTX əməliyyat keçirdi: qaçaqmalçılardan 71 min dollar müsadirə edildi

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində, qanunsuz valyuta mübadiləsi əsasında toplanılmış külli miqdarda xarici valyutanın ölkə ərazisindən qaçaqmalçılıq yolu ilə daşınmasında şübhəli bilinən Masallı rayon sakinləri - Babayev Azər Akif oğlu, Qafarlı Mehman Məhərrəm oğlu və Məmmədov Nofəl Müştəba oğlu saxlanılıblar.**

DTX-nin İctimai əlaqələr şöbəsindən verilən məlumata görə, keçirilmiş baxışlar nəticəsində onlardan 71 min 500 ABŞ dolları, 6 min 500 rubl və 4 min 361 manat məbləğində pul əsginazları protokollaşdırılaraq hal şahidlərinin iştirakı ilə götürülüb.

Hazırda faktla bağlı əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Bakıda 17 tələbə liftdə qaldı

**Bakı şəhərinin Səbayel rayonu ərazisində yerləşən universitetin tədris binasında 17 nəfər liftdə qalıb.**

FHN-dən APA-ya verilən məlumata görə, nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasedicilləri müvafiq xilasetmə işlərinin görülməsi üçün həmin ünvana cəlb olunublar.

Xilasedicilər vətəndaşların liftdən çıxmasına kömək göstəriblər.

YENİ MÜSAVAT
N 221 (6835) 26 oktyabr 2017

# Azərbaycan-Afrika əməkdaşlığı - ixrac edəcəyimiz məhsullar üçün yeni bazar

**Son zamanlar Azərbaycanın Afrika ölkələri ilə əməkdaşlığında canlanmanın yaranması, səfərlərin həyata keçirilməsi, çoxsaylı görüşlər müzakirələrə səbəb olub. Hətta bəzi müşahidəçilər Azərbaycanın Avropanın bəzi qurumları ilə münasibətlərində yaranmış problemlərin qarşılığında Afrika ölkələri ilə əməkdaşlığa önəm verdiklərini iddia edirlər.**

**Politoloq:** "Hazırda Afrikada 54 müstəqil dövlət var və dövlətlərlə yaxından əməkdaşlıq Azərbaycanın beynəlxalq əməkdaşlıq platformalarında mövqelərinin möhkəmlənməsi anlamına gəlir"

Qeyd edək ki, ölkəmizdə səfərdə olan Pan-Afrika Parlamentinin prezidenti Rocer Nkodo Danqın rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda bir sıra görüşlər keçirib. Azərbaycanın baş naziri Artur Rasi-zadə ilə görüşdə hökumət başçısı Pan-Afrika Parlamenti prezidentinin ölkəmizə ilk səfərinin qarşılıqlı faydalı əməkdaşlığımızın uğurlu başlanğıcı olacağına əminliyini ifadə edib. Baş nazir Artur Rasi-zadə Azərbaycanla Afrika İttifaqı arasında əlaqələrin davamlı inkişafı üçün iqtisadi-ticarət və mədəni-humanitar sahələrdə geniş potensialın mövcudluğunu qeyd edib.

Ölkəmizlə hərtərəfli əməkdaşlığa maraq göstərdiklərini deyən Pan-Afrika Parlamentinin prezidenti Rocer Nkodo Danq səfər çərçivəsində keçirilən görüşlər barədə Azərbaycanın baş nazirinə ətraflı məlumat verib. O, xüsusən Azərbaycanın brendi olan "ASAN xidmət" modeli ilə tanışlıq zamanı orada yaradılmış şəraitin və nümunəvi iş prinsipinin nümayəndə heyətində böyük maraq doğurduğunu deyib. Vaxtilə yüzlərlə afrikalının Azərbaycanda ali təhsil aldığını minnətdarlıqla xatırladan qonaq hazırda Bakıda təhsil alan afrikalı tələbələrlə görüşdən, tədris komplekslərində onlara yaradılan şəraitlə tanışlıqdan məmnun qaldıqlarını bildirib.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a açıqlamasında Afrika ölkələri ilə əməkdaşlığın önəmindən bəhs etdi:** "Afrika əhalisinin sayına görə Asiyadan sonra dünyanın ən böyük qitəsidir. Qitənin nəhəng təbii resursları, ciddi idxal və ixrac potensialı var. Əgər biz ölkənin qeyri enerji sektorunu inkişaf etdirmək istəyiriksə, şübhəsiz ki, ilk növbədə ixrac edəcəyimiz məhsullar üçün bazar tapmalıyıq. Şübhəsiz ki, biz yalnız Azərbaycana məxsus olan bəzi məhsullar istisna olmaqla, Avropa bazarında söz sahibi olan şirkətlərlə rəqabət apara bilmərik. Asiya bazarında da vəziyyət bizim məhsullar üçün bir o qədər də əlverişli deyil. Şimali və Cənubi Amerika da həmçinin... Bu baxımdan, Azərbaycanın Afrika ölkələri ilə əməkdaşlığı genişləndirmək cəhdləri təbii qəbul olunmalıdır". **Ekspert əməkdaşlığın daha yüksək səviyyədə həyata keçirilməsini zəruri saydı:** "Bəzən biz Afrika ölkələrini obyektiv dəyərləndirə bilmirik və bu qitədə baş verən proseslərə səthi yanaşırıq. Bir məqamı xatırladım, dünyanın ən böyük Günəş elektrik stansiyası Afrika ölkəsində - Mərakeşdə yerləşir və 1,4 milyon kvadrat metri əhatə edir. Mütəxəssislər nəinki Afrikanın, bütövlükdə dünya energetikasının gələcəyinin məhz Mərakeşdə inşa edilmiş Günəş elektrik stansiyasından asılı olduğunu bildirirlər". **İki il əvvəl Tunisdə səfərdə olan və ordakı müşahidələrini qələmə alıb maraqlı reportajlar hazırlayan E.Mirzəbəyli qeyd etdi ki, bu gün Afrika ölkələri çox sürətlə inkişaf edirlər:** "Xüsusilə də bərpa olunan enerji sahəsində çox böyük uğurlara imza atırlar. Demək istədiyim odur ki, bizim də Afrika ölkələrindən


Elçin Mirzəbəyli

öyrənə biləcəyimiz çox şeylər var. Siyasi müstəvidə də Afrika ölkələri ilə əlaqələrimizin inkişafı bizim üçün əlverişlidir. Hazırda Afrikada 54 müstəqil dövlət var və dövlətlərlə yaxından əməkdaşlıq Azərbaycanın beynəlxalq əməkdaşlıq platformalarında mövqelərinin möhkəmlənməsi anlamına gəlir". **O ki qaldı xarici siyasətimizdə Avropanın Afrika ilə əvəz edilməsinə, politoloq hesab edir ki, bu, yalnız metofarik ifadə kimi qəbul oluna bilər:** "Qitələri, onların Yer kürəsindəki mövqeyini, tarixi inkişaf səviyyələrini biz müəyyənləşdirməmişik. Bu və ya digər ölkənin xarici siyasəti də bu coğrafi reallıqlara, onların yaratdığı geosiyasi amillərə görə müəyyənləşir".

❑ Cavid TURAN



# Nazirlik "Bad rabbit" virusundan qorunmağın yollarını açıqladı

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi internet istifadəçilərinə xəbərdarlıq edib. Qurumdan "APA-Economics"ə verilən məlumata görə, müxtəlif ölkələrdə 200-dən çox dövlət qurumunun və özəl təşkilatların informasiya sistemlərinə zərbə vuran "Bad rabbit" adlandırılan ransomware virusu aşkarlanıb. Virus "Win32/Diskcoder.D" "Trojan-Ransom.Win32.Gen.f", "Win32/Tibbar", "Troj/Ransom-ERK" adları altında sistemlərə nüfuz edir.**

Rusiya, Türkiyə, Ukrayna, Almaniya kimi ölkələrdə sürətlə yayılan virus "Petya" virusunun bir başqa formasıdır. Hücumçu kompüter sistemlərini kilidləyir və açılması üçün qurbandan 0,05 bitcoin (~ $285) tələb edir. Belə ki, virus bəzi rus xəbər media saytlarına daxil olan istifadəçilərə saxta "Adobe Flash Player"də yenilik barəsində pop-up reklam mesajı kimi təqdim olunaraq yayılıb. Bununla yanaşı, istifadəçilər bu və ya digər təhlükəli saytlara daxil olduğu zaman zərərli fayllardan ibarət olan saytlara yönləndirilir.

Qeyd edək ki, tələb olunan məbləğ ödənilmədən şifrələnmiş sistemlərin deşifrə olunma yolları hələ də araşdırılmaqdadır.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi mövcud təhlükədən mühafizə olunmaq üçün aşağıdakı təhlükəsizlik tədbirlərini istifadəçilərin diqqətinə çatdırır:

- Ziyanvericinin şəbəkənizdə yayılmasının qarşını almaq üçün WMI xidmətini (Windows Management Instrumentation Command-line) deaktiv edin;
- Kompüterdəki faylların (mətn, şəkil, video, audio) ehtiyat nüsxəsini başqa bir qurğuya köçürün (backup);
- Windows əməliyyat sistemlərində mövcud olan boşluqların aradan qaldırılması üçün dərhal yenilənmə ("patch"ın yüklənməsi və quraşdırılması) aparın;
- E-poçt vasitəsi ilə göndərilən naməlum fayllara, tanış olmayan hər hansı digər mənbəyə keçidə daxil olmayın;
- Qeyri-rəsmi mənbələrdən tətbiqetmələr yükləyib quraşdırmayın;
- Sisteminizi ehtiyac olmadığı təqdirdə "admin" olaraq idarə etməyin;
- Aktiv və antivirus bazası aktual olan antivirusdan istifadə etdiyinizdən əmin olun;
- Əgər hər hansı antivirus proqramı istifadə edilmirsə, Microsoft Defender antivirus proqramından istifadə edin.

# Meral Akşenerin İyi Partisi...

## Türkiyənin ilk qadın daxili işlər naziri olmuş Akşener siyasi partiya təsisçisi kimi ağır bir işin öhdəsindən gəldi

**Türkiyənin sabiq daxili işlər naziri və vitse-spikeri Meral Akşener oktyabrın 25-də yeni partiyasını elan edib. Yerli vaxtla saat 9 radələrində yeni partiyanın təmsilçiləri Daxili İşlər Nazirliyinə qeydiyyatla bağlı rəsmi müraciəti təqdim ediblər.**

Meral Akşenerin yeni qurduğu partiyanın adı İyi Partidir. Yeni partiyanın loqosu 8 istiqamətə şüa saçan Günəş, şüarı isə "Türkiyə iyi olacak"dır. Yeni partiyanın təsis sənədlərini DİN-ə M.Akşenerlə birlikdə millət vəkilləri Nuri Okutan, İsmayıl Ok, Yusuf Halaçoğlu və bir neçə gün əvvəl CHP-dən istefa etmiş Aytun Çıray aparıb.

Yeni Partiyanın təsis toplantısı əvvəlcə Ankara JW Mariott hoteldə planlaşdırılsa da, sonradan hotel rəhbərliyi tədbiri keçirməkdən imtina edib. Bu səbəbdən də konfrans Nazım Hikmət Mədəniyyət Mərkəzində keçirilib. Ancaq mərkəz 1600 yerlik olduğu üçün toplantıya gələnlərin böyük bir hissəsi bayırda qalıb və konfransı monitorlardan izləyib. Konfransda yeni partiyanın 200 nəfərlik təsisçi heyətinin adları sadalanıb. Təsisçilər arasında Meral Akşenerlə birlikdə Ali Türkşen, Aytun Çıray, Durmuş Yılmaz, Müsavvat Dervişoğlu, Ümit Özdağ, Yusuf Halaçoğlu, Nuri Okutan, İsmail Ok, həmçinin sabiq meşə və şəhər təsərrüfatı naziri Koray Aydın, sabiq dövlət nazirləri Ayfer Yılmaz, Ahat Andican, istefada olan xüsusi təyinatlı dəniz piyadası, polkovnik Ali Türkşen, Atatürkün əmisinin nəticəsi Selin Söğütlügil, Aşıq Veysəlin nəvəsi, iş adamı Çiğdem Özer, sabiq deputat Cevher Cevheri, Ankara Polis İdarəsinin rəisi Fatih Eryılmaz, Erdoğan Bozdemir, sabiq nazir Suat Çağlayan və millət vəkili Kazım Ataoğlu kimi tanınmış şəxslər var.

Qeyd edək ki, Meral Akşener bir müddət MHP-də qurultayın keçirilməsi və partiyanın yeni sədrinin seçilməsi ilə bağlı mübarizə aparsa da, cəhdlər uğursuz olub. MHP-nin hazırkı rəhbərliyi qurultayın nizamnaməyə uyğun olaraq 2018-ci ildə keçiriləcəyini bəyan edib. Bundan sonra M.Akşener MHP-dən xaric edilib və yeni partiya qurulması üçün fəaliyyətə başlayıb. Partiya qurulması, eləcə də MHP-də növbədənkənar qurultay çalışmaları zamanı Akşener demək olar ki, Türkiyənin əksər vilayətlərini gəzib,


Meral Akşener

MHP üzvləri ilə görüşüb. Hazırda onun ətrafında keçmişdə və indi yüksək vəzifələr tutmuş, etimad sahibi olan insanlar var. Bundan başqa, həm MHP elektoratı, həm də AKP elektoratından bir qismin Akşenerin tərəfinə keçəcəyi gözlənilir. Təsis qurultayı öncəsi CHP və HDP-dən yüksək vəzifəli şəxslərlə görüşməsi, transferlər onu göstərir ki, Akşenerin partiyası bütün siyasi qütbləri öz ətrafına toplamaqda iddialıdır. Təbii ki, ilk olaraq Akşenerin özünün də təsis toplantısında qeyd elədiyi kimi, hədəfi 2019-cu il prezident seçkiləridir. Bu seçkilərdə topladığı səslər onun üçün "siyasi pasport" rolunu oynayacaq. Çünki bir ildən sonra parlament seçkiləri var və partiyanın əsas gücü onda üzə çıxacaq.

Hələliksə Meral Akşener bir çox siyasətçinin, hətta çox məşhur və nüfuzlu siyasi xadimlərin edə bilmədiyini edib partiya yarada bildi. Hətta Türkiyədə bir sıra araşdırma mərkəzlərinə görə, parlament seçkilərində Akşenerin partiyası seçki baryerini rahatlıqla keçə biləcək, manelərə baxmayaraq güclü şansları da var. Bir qadın üçün bunu bacarmaq böyük nailiyyət hesab olunur. Türkiyədə bundan öncə bu təcrübəni bənzər şəkildə Tansu Çillər yaşayıb. Ölkənin baş naziri olub, seçkilərdə uğur qazanıb. Bir zamanlar T.Çillər kabinetində Türkiyə tarixində ilk və hələlik son daxili işlər naziri vəzifəsini 20 il qabaq məhz Akşenere etibar edib. İndi isə Akşener özü müstəqil şəkildə partiya quraraq böyük siyasətə atılıb.

Yeri gəlmişkən, Azərbaycanda da qadın siyasi lider təcrübəsi olub. Liberal Partiyanın sədri, keçmiş dövlət katibi Lalə Şövkət Hacıyeva bir dönəm Azərbaycanda iddialı siyasi liderlərdən biri olub. Lalə Şövkət Hacıyeva qatıldığı prezident və parlament seçkilərində ciddi nəticə göstərib. 2005-ci ildə isə müxalifətin mandatdan imtina etməsi çağırışına görə seçildiyi halda parlamentə getməyib və deputat mandatından imtina edib. Hazırda da aktiv siyasətdən çəkilsə də, Lalə Şövkətin ciddi siyasi nüfuzu var. Lakin bununla belə, mövcud siyasi şərtlər nəinki qadın siyasətçi, ümumiyyətlə, yeni siyasi liderlərin meydana çıxmasına əngəldir.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 221 (6835) 26 oktyabr 2017



# Qarabağ klanının ağlında daha nələr var?

Hüseynbala SƏLİMOV

**Məni də indi ən çox məşğul edən S.Sarkisyanın növbəti il üçün siyasi planlarıdır. Ermənistanın KİV-ləri, Serjikə yaxın adamlar and-aman edirlər ki, guya, bu adamın baş nazir olmaq planı yoxdur. Hətta ən son açıqlamanı srağagün oxudum. Bəli, deyirlər, danışırlar, amma di gəl, nöqtəni qoymurlar, inandırıcı görünmürlər, məsələ açıq qalır.**

Məsələ ilə bağlı ağılıma gələn bəzi məqamları ötən yazıda qeyd etmişdim. Amma bir sual bir az əvvəl dediyim kimi, hələ də cavabsız qalmaqdadır: Niyə görə dünya konstitusiya hüququnun incəliklərindən, siyasi demokartiyanın "hiyləgərlik"lərindən bir o qədər baş çıxarmayan ermənilər birdən-birə prezident respublikasında deyil, parlament respublikasında yaşmağa qərar verdi? Doğrudanmı, orta statistik Mkrtç və yaxud Aşot üçün bu məsələ belə önəmlidi?

Bütün bu siyasi maskaradı, teatrı Ermənistanın Qarabağ kriminal siyasi klanının, xüsusən də Serjikin öz adına yazmaq daha düzgün olmazdımı?

Ötən dəfə də yazmışdım ki, Ermənistanda "uzunömürlü siyasətçi" olmamaq günahdır və Serjik bunu etməsə, deməli, o, həqiqətən də çox axmaq adamdır. Amma düşünürəm ki, Sarkisyan düşmən olsa da, tamam axmaq da deyil.

Üstəlik, Ermənistanda heç bir demokratiya-filan yoxdur. Bütün "erməni demokratiyası" bir az hiyləgər "seçki hesabı"ndan başqa bir şey deyil- bəli, seçkilərdə daha "inandırıcı" ədədlər yazırlar! Amma bununla da bütün "erməni demokratiyası" bitir.

Sirr deyil ki, keçmiş mərkəzi erməni elitası, əhalinin savadlı və fəal hissəsi ölkəni tərk edib və onların yerini əyalət adamları tutub. Ona görə də Serjik üçün ehtiyatlanmağa xüsusi əsas yoxdur.

Üstəlik, beynəlxalq demokratiya institutları da Ermənistana daha çox etimad göstərir, nəinki, məsələn, bizim Azərbaycana. Məsələ bundadır ki, elə həmin institutlar da ilk növbədə müsəlman ölkələrinə inamsızlıqla yanaşmağa alışıblar. Onların "məntiq"inə görə Ermənistan kimi kiçik xristian ölkəsi, xüsusən də xristinalığı hamıdan əvvəl qəbul etdiyini iddia edən bir xalq, qeyri-demokratik və avtoritar, prinsipcə, ola bilməz, o səbəbdən ki, ermənilər axı "müsəlman - barbar"lar deyillər, mədəni və tərəqqipərvər xristianlardır...

Bəli, çox acı və kədərlidir, amma ki, faktdır, özü də çox geniş yayılmış haldır. Biz tez-tez unuduruq ki, siyasəti də adi insanlar formalaşdırır və onlarsa heç də müəyyən stereotiplərdən, qərəzdən azad deyillər.

Ötən dəfə də qeyd etdim ki, Sarkisyanın son bəyanatlarını bütün bu proseslərlə, Serjikin növbəti ilə nəzərdə tutulan planları ilə izah etmək cəhdləri var.

Bu arqumentləri tamamilə inkar etmirik, amma ki, məsələnin əsl köklərinə də baxmaq lazımdır ki, Serjik baş nazir olandan və yaxud da bu postu bir başqası tutandan sonra da Ermənistan siyasətində davam edən qudurğanlıq bizi təəccübləndirməsin.

Ötən ilin aprelində ordumuzun əməliyyatları Ermənistan üçün ciddi dərs oldu - göstərdik ki, artıq ordumuz var...

Amma nəinki biz özümüz, nə qədər qəribə olsa da, hətta ermənilər, xüsusən də onların cinayətkar hərbi -siyasi bandası Azərbaycandan daha artıq təzyiq gözləyirdi. Təəssüf ki, bu, alınmadı.

Səbəbini azacıq sonra yazacam. İndilik isə onu deyim ki, ötən ilin aprelini 1994-cü ildən gözləyirdik. Atəşkəslə bağlı razılaşma imzalanandan sonra iqtisadi və hərbi imkanlarımızı artırmağa başladıq. Vaxt da hədər getmədi. Azərbaycanla Ermənistanın iqtisadi göstəriciləri müqayisəyə belə gəlmir...

Hətta Sarkisyan özü bir dəfə demişdi ki, onun ölkəsi heç vaxt Azərbaycan qədər varlı olmayacaq. Mən bura "güclü" sözünü də əlavə edərdim - bəli, ayrılıqda götürülən Ermənistan heç vaxt Azərbaycan tək güclü olmayacaq.

Oyuncaq Ermənistanın "güc"ü Rusiya ilə geosiyasi ittifaqındadır - təəssüf ki, hələ də Rusiyanın bölgədəki geosiyasi hədəfləri ermənilərin utopik "milli sayıqlama"ları ilə üst-üstə düşür. Amma düşünürəm ki, bu da əbədi deyil - vaxt gələcək, Rusiya da öz geosiyasi prioritetlərini təftiş etməli olacaq.

İndi isə bir daha ötən ilin aprel hadisələrinə qayıdaraq demək olardı ki, çox təəssüf ki, onda Ermənistana yetərincə dərs verə bilmədik. Səbəbi? Mənə elə gəlir ki, onda da, elə indi də məsələ Rusiya amilinə dirənir...

Məsələ o vaxt həllini olacaq ki, biz həm də Rusiyanın müqavimətini azaltmağın yollarını tapaq, Ermənistan-Rusiya zəncirini əhəmiyyətli dərəcədə zəiflədək. Bunu üçünsə Rusiyaya da təzyiq etmək lazımdır.

Yolu da Türkiyə ilə, eləcə də Qərblə əlaqələrimizi gücləndirməkdir. Rusiya bizi Qarabağla şantaj etdiyi kimi biz də onu daim Türkiyəyə və xüsusən də Qərbə üz tutacağımızla qorxutmalıyıq - başqa yol yoxdur...

# REAL sədri üçün verilən vaxt başa çatdı; gözlər AŞ PA-da...

**Avropa Şurası Parlament Assambleyasının REAL sədri İlqar Məmmədovun azadlığa buraxılması üçün Azərbaycan hakimiyyətinə verdiyi vaxt oktyabrın 25-də başa çatdı. AŞ PA bildirmişdi ki, əgər REAL sədri azad edilməsə, Azərbaycanın Avropa Şurasından çıxarılması məsələsi gündəmə gələcək. Amma vicdan məhbusu verilən vaxt ərzində azadlığa buraxılmadı. Maraqlıdır, AŞ PA hansı addımları atacaq?**

## **Fazil Mustafa:** "İlqar Məmmədov həbsdə olanda daha məşhur şəxsə çevrilir"
## **Mehman Əliyev:** "Deməzdim ki, 25-nə qədər buraxılması üçün vaxt qoyulmuşdu"

Bu istiqamətdə gedən müzakirələr birmənalı deyil. AŞ PA-nın sərt qərar qəbul edəcəyini düşünənlər də, bu məsələdə Azərbaycanla beynəlxalq qurum arasında hər hansı bir razılığın əldə oluna biləcəyini deyənlər də var. Əksəriyyət REAL sədrinin tezliklə azadlığa buraxılacağını düşünür. İlin sonuna qədər bunun reallaşacağı da qeyd edilir.

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa** İ.Məmmədovun həbsdə saxlanılmasının əleyhinədir: "Əsas məsələ budur ki, İlqar Məmmədov həbsdə olanda daha məşhur şəxsə çevrilir. Azadlıqda olarsa, onun hər hansı bir ideyasının, fikrinin Azərbaycan cəmiyyəti üçün elə də cəlbedici olacağını düşünmürəm. Bu istiqamətdə cəmiyyət tərəfindən elə də tanınan şəxs deyil. Hakimiyyətin İlqar Məmmədovu niyə belə məşhurlaşdırmaq xətti götürdüyünü, onu ciddi rəqibə çevirdiyini anlamaq mənim üçün də çətindir. Onun həbsdə qalmasının heç bir mənası yoxdur. Avropa Şurasının onunla bağlı tələbi oldu-olmadı əhəmiyyəti yoxdur. Çünki Azərbaycan tərəfi belə tələblərə əhəmiyyət vermir. Avropa Şurasında ölkəmizə qarşı olan qərəzli yanaşma hər kəsə məlumdur. Lakin bu tələb oldu-olmadı, İlqar Məmmədovun buraxılması lazımdır. Onu süni surətdə məşhurlaşdırıb, siyasi liderə çevirməyi anlamıram. Adam hansısa bir əsəri, kitabı,


İlqar Məmmədov

düşüncələri ilə Azərbaycan cəmiyyətində təlatüm yaratmır. Yaxud da xüsusi bir fikir sahibi deyil ki, hakimiyyət ondan qorxsun, çəkinsin. Bu məsələlərdə bəzi şəxslərin süni surətdə belə mövqedə olmasının, onun həbsxanada saxlanılmasının şərhini vermək çətindir. Ümid edirəm ki, bu məsələ həllini tapar, Azərbaycanın hər hansı problemlərlə üzləşməsinin önü kəsilər".

"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev isə "deməzdim ki, 25-nə qədər buraxılması üçün vaxt qoyulmuşdu. Sadəcə olaraq, bu məsələ müzakirəyə çıxarılacaq, Azərbaycan tərəfdən bu məsələ ilə bağlı informasiya alınacaq - deyə qeyd etdi: "Əsas olan odur ki, məsələnin həlli üçün vaxt veriləcək. Orada məsələ belə qoyulmamışdı ki, oktyabrın 25-də hər hansı bir qərar veriləcək. Burada təkcə İlqar Məmmədovun məsələsi yoxdur. Daha çox geniş siyasi məsələlər burada var ki, bunlar öz həllini tapmalıdır. Əvvəlcədən bəyan edilirdi ki, baxış olacaq, ondan sonra vaxt qoyulacaq. Məsələnin həllindən asılı olaraq, növbəti iclasda artıq o məsələ qalxa bilər. Hakimiyyət əslində İlqar Məmmədovu azad etməlidir. Ona görə yox ki, Avropa sıxır deyə bunu etsin. Sadəcə olaraq, qanun nöqteyi-nəzərindən və digər aspektlərdən baxsaq, bütün hallarda o azad olunmalıdır. Onun həbsi və həbsdə saxlanılması haqsızlıqdır. Bizdə çoxsaylı siyasi motivlərlə həbs edilən məhbuslar var. Bu məsələ də hələ həll olunmayıb. Burada vacib olan məsələ məhkəmələrin azad olmaması ilə bağlıdır. Azərbaycanda ən böyük problemlərdən biri də odur ki, məhkəmələr icra hakimiyyətindən asılıdır və tapşırıqlar əsasında qərarlar qəbul edir. Buna son qoyulmasa, siyasi və iqtisadi, eləcə də başqa məsələlərdə problemlər artmaqda davam edəcək. Hesab edirəm ki, yaxın gələcəkdə bu məsələ prioritet olacaq".

Qeyd edək ki, İlqar Məmmədov 23-24 yanvar 2013-cü il tarixində İsmayıllı şəhərində baş vermiş iğtişaşlarla əlaqədar həbs edilib. O, kütləvi iğtişaşlarda, polisə müqavimət göstərməkdə ittiham olunaraq 7 il müddətinə azadlıqdan məhrum edilib.

2014-cü ilin mayında Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) İlqar Məmmədovun həbsi və həbsxanada saxlanması ilə Avropa İnsan Hüquqları Konvensiyasının bir çox müddəalarını, o cümlədən azadlıq və şəxsi toxunulmazlıq hüququ, ədalətli məhkəmə hüququ və təqsirsizlik prezumpsiyası prinsipi haqqında 5.1, 5.4 və 6.2-ci maddələrininin pozduğunu tanıyıb. Məhkəmə İlqar Məmmədovun hər hansı dəlil olmadan saxlandığı qənaətinə gəlib.

Avropa Şurası (AŞ) Nazirlər Komitəsi dəfələrlə Azərbaycan hakimiyyətini AİHM-in Məmmədovun işi üzrə qərarını icra etməyə çağırıb. Oktyabrın 25-də AŞ Nazirlər Komitəsi Azərbaycan barəsində Avropa Konvensiyasının AİHM-in qərarlarını yerinə yetirməyən ölkəyə qarşı məsuliyyət tədbirlərinin tətbiqini nəzərdə tutan 46-cı maddəsinin tətbiq edilməsi haqqında məsələyə baxacaq.

❑ Cavanşir ABBASLI

# BŞBPİ Aslan İsmayılovun ittihamlarına cavab verdi

**Bakı Şəhər Baş Polis İdarəsi (BŞBPİ) vəkil Aslan İsmayılovun ona qarşı qondarma cinayət işinin açılması və saxta ittiham irəli sürülməsi barədə fikirlərinə münasibət bildirib.**

BŞBPİ-dən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, bu il oktyabrın 2-də səhər saatlarında Binəqədi Rayon Məhkəməsinin inzibati binasında Bakı şəhər sakini H. Hacıyeva qarşı təhqir və böhtanla bağlı xüsusi ittiham qaydasında şikayətinin icraata götürülməsindən imtina olunması barədə hakim Rəşad Əliyevin qərarına vəkil Aslan İsmayılov iclas zalında yüksək tonla etiraz edib, yalnız hakim-


Aslan İsmayılov

lər üçün nəzərdə tutulmuş qapıdan inzibati binaya keçməyə cəhd göstərib, bu da alınmadıqda üzünə bağlanmış qapıya əli ilə zərbələr endirib.

"Başqa vaxt qanunların aliliyindən danışan, hüquqlarını qoruduğu vətəndaşlara örnək olmalı olan bu şəxs qanunsuz hərəkətlərini məhkəmənin həyatində də davam etdirib, işə baxan hakimin və məhkəmə rəhbərliyinin ünvanına təhqiramiz ifadələr söyləyib", - deyə məlumatda bildirilir.

Məlumatda həmçinin qeyd olunur ki, Aslan İsmayılovun ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, məhkəmənin iş rejimini pozan xuliqanlıq hərəkətləri barədə Binəqədi Rayon Məhkəməsinin işçiləri tərəfindən müvafiq akt tərtib olunaraq hüquqi qiymət verilməsi üçün rayon prokurorluğuna göndərilib.

Toplanmış materiallar əsasında prokurorluq tərəfindən Cinayət Məcəlləsinin 221.1-ci (xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb, istintaqın aparılması Binəqədi Rayon Polis İdarəsinin İstintaq şöbəsinə həvalə edilib.

İstintaq zamanı A.İsmayılov və şahidlər dindirilib, hadisə yerinə baxış keçirilib, ekspertizalar təyin olunmaqla müvafiq rəylər alınıb.

**Hazırda iş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.**

# Abbasovların yeni mesajı - şifrəli foto

**Baş nazirinin sabiq birinci müavini Abbas Abbasova Azərbaycana qayıtmaq qadağası olduğu məlumdur. 2013-cü ildə Kremlin Azərbaycan hakimiyyətinə qarşı qurduğu "Milyarderlər İttifaqı" adlanan qurumdakı fəaliyyətinə görə ölkəyə yollarını birdəfəlik bağlayan sabiq vitse-primyer hələ də "qaçqın həyatı" yaşayır. Bütün biznesini Türkiyə və Rusiyada quran A.Abbasovun oğlu Aydın Abbasov da Azərbaycanla vidalaşmaq məcburiyyətindədir.**






2015-ci ildə deputat mandatını yerə qoymağa məcbur olan A.Abbasov da yalnız ara-sıra ölkəyə gəlir. O, atasının yeni biznes planlarında yer alıb. Məlumdur ki, Ramazan Abdulatipov Dağıstan prezidenti təyin ediləndən sonra Xəzərin o biri tərəfində geniş biznes şəbəkəsi qurub.

2017-ci il oktyabr ayının əvvəlində gözlənilmədən istefaya gedən Abdulatipov "Milyarderlər İttifaqı"nda təmsil olunurdu və bundan əvvəl də A.Abbasovla isti münasibətləri vardı. Abdulatipov vəzifə kürsüsünə yerləşən kimi A.Abbasov da tez-tez onun yanında peyda olmağa başladı. Rusiya mətbuatında bu mübhəm dostluqla bağlı müxtəlif rəylər vardı. Dağıstan rəhbəri Abbas Abbasovla dostluq münasibətlərinə görə hətta açıq tənqid olunurdu. Məsələn, "Dostunuzu göstərin, kim olduğunuzu deyim" başlıqlı müəllif yazısından sitat: "Dağıstan rəhbərinin dostları sırasında Abbas Abbasov kimi intriqaçı, təxribatçı və burnunu hər yerə soxan bir şəxs varsa, onda onu

# Abbas Abbasov və oğlu Putinin adamına sığındı

## Sabiq vitse-primyerin Dağıstandakı biznesinə ciddi zərbə - VİP binanın tikintisi dayandırılıb; Rusiya prezidentinin Xəzər regionundakı yeni nümayəndəsi ilə fotolarını yayan Abbasovlar nəyə işarə ediblər?; Onların seçki ilində Kremlə lazım olub-olmadıqları tezliklə bilinəcək...

hansı aqibət gözləyəcəyi bəri başdan bəlli olur. Abbas Abbasov ölkəsi Azərbaycanda da sevilmir. Bu şəxsdən uzaq durmaq lazımdır. Əgər Abdulatipov yaxın vaxtlarda Abbasovla dostluğuna son qoymasa, onun "papağı" yerə düşəcək".

Dağıstandakı mənbələrin məlumatına görə, Abdulatipovun gedişindən sonra A.Abbasov da hələ ki oradakı biznesini dondurmaq məcburiyyətində qalıb. Məlumdur ki, Aydın Abbasov Dərbənddə çoxmərtəbəli VİP yaşayış kompleksi inşa etdirirdi. Prezident səlahiyyətlərini müvəqqəti icra edən Vladimir Vasilyev isə əhalidə narazılıq doğuran bütün tikinti işlərinin dərhal dayandırılması barədə göstəriş verib. "Bu, Abbas Abbasovun oğlunun Nizami adına parkın ərazisində başladığı tikintiyə də aiddir. Vasilyevin təyinatından sonra dərhal Azərbaycanla əlaqələrə ciddi önəm verməsi, Dağıstanla Azərbaycanı birləşdirəcək Samur çayı üzərindən yeni avtomobil körpüsünün tikintisinə başlaması Abbasovların çətin ki, ürəyincə olsun" deyə, yerli mənbə bildirib.

Abdulatipovun istefaya göndərilməsindən sonra Azərbaycan mətbuatında "Abbas Abbasovun "krışası" vəzifədən getdi" kimi sərlövhəli yazıların dərcinin qarşı tərəfin narahatlığına səbəb olacağı gözlənilən idi. Sirr deyil ki, Abdulatipov zamanında rəsmi Bakıdan "Abbasın bağışlanılması" xahişini etsə də, ona "yox" cavabı verilmişdi.

Dağıstanda "arxa bağçası" kimi rahat olan Abbasovlar isə yenə də Putinin adamına sığınmağı özlərinə şəraf hesab edirlər. Məlumdur ki, Abdulatipov təcrübəli dövlət adamı olduğu üçün Rusiya prezidenti onu kənarda saxlamadı. Bir həftə əvvəl Vladimir Putin Abdulatipovu Rusiya prezidentinin Xəzəryanı ölkələrlə humanitar və iqtisadi əməkdaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi təyin edib. Sabiq vitse-primyerin oğlu bu günlərdə öz İnstaqram səhifəsində gördüyünüz bu fotonu paylaşıb. Abdulatopov haqda xoş sözlər və təbrik yazan Aydın Abbasov əslində "krışaların" hələ də möhkəm olduğuna işarə edib. Putinin indi də Xəzər regionunda nümayəndəsi olan Abdulatipova bərk-bərk sığınan Abbasovların Azərbaycanda yaxınlaşmaqda olan seçki ilində Kremlə lazım olub-olmadıqları da tezliklə bilinəcək...

Abbas Abbasovun yenidən belə bir planda yer ala biləcəyi haqda çox yazılıb, görünür, hələ yazılacaq da...

❑ **"YM"**

# Büdcə təşkilatlarından mitinqdə iştirak edənlər yenə cəzalandırılacaq

## Bu dəfə daha sərt tədbirlər görülə bilər

**Milli Şura oktyabrın 28-də növbəti dəfə mitinq keçirmək üçün Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edib. Məlumdur ki, hakimiyyət bu mitinqləri sanksiyalaşdırsa da, aksiyada iştirak edənləri sərt cəzalandırır. "Məhsul" stadionunun bir neçə yerində vidoçəkilişlər aparılır, mitinqində iştirak edənlərin foto və videogörüntüləri əsasında cəza tədbirləri həyata keçirilir.**




İqtidar büdcə təşkilatlarında işləyənlərin aksiyalarda iştirakını monitorinq etmək üçün hətta xüsusi qruplar da yaradıb ki, bunun nəticəsində son aylar keçirilən mitinqlərdə onlarla adam işdən kənarlaşdırılıb. Həmin video-foto görüntülər əsasında yaradılmış xüsusi qrup təkcə büdcə təşkilatlarında işləyənləri deyil, ali məktəblərdə təhsil alan tələbələri də təsbit edir. Aksiyada iştirakı müəyyən edilənlərin əvvəl fotoları çıxarılır. Onlar rəhbərlik tərəfindən çağırılaraq faktlar sübut kimi qarşısına qoyulur və heç bir izahat tələb etmədən işdən kənarlaşdırılırlar. Məlumata görə, aksiyada iştirakı fiksə olunmuş şəxslərin tutduqları vəzifədən və ya kimlərləsə qohumluq əlaqələrindən asılı olmayaraq dərhal işdən uzaqlaşdırılmasına göstərişi verilib və artıq bunun nəticəsində işini itirənlərin sayı artıb. Maraqlıdır ki, aksiyada iştirak edənlərin "maraq üçün getmişdik", "danışdıqları ilə razı deyilik" kimi bəhanələrinə diqqət yetirilmir. Mitinqdə iştirak etdiyi üçün indiyədək 100-dək çox müəllimlər işdən qovulub, o cümlədən bir sıra digər büdcə təşkilatlarında işləyənlərin müqaviləsinə vaxtından əvvəl xitam verilib. Tələbələrin də oxuduqları təhsil müəssisələrindən uzaqlaşdırılması proseduruna start verilməsi barədə məlumatlar var. Eyni zamanda hətta bir neçə mənzil istismar sahəsinin əməkdaşının da son aylar işdən uzaqlaşdırıldığı barədə təsdiqlənmiş informasiyalar var. Hakimiyyətin qərarlığından belə görünür ki, müxalifətin "son nəfəsində" keçirdiyi mitinqlərə qoşulanlara güzəştsiz davranaraq etirazçılara qoşulan az sayda da olsa büdcə çalışanlarını cəzalandırmaqla digərləri üçün görk yaradır.

Milli Şuranın 7 oktyabr aksiyasında iştirak edən əməkdar artist Ayşad Məmmədovun Akademik Milli Dram Teatrındakı işindən azad olunması da deyilənlərə sübut ola bilər.

Milli Şuranın mitinqində Ayşad Məmmədovla birlikdə tanınmış aktyorlar Abbas Qəhrəmanov və İlqar Cahangir də iştirak ediblər ki, onlarla bağlı da bu günlərdə sərt qərar veriləcəyi gözlənilir. Belə ki, onlara bir daha seriallarda rol verilməyəcəyi qərarlaşdırılıb. Xatırladaq ki, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev məsələyə münasibət bildirərkən "əfsuslar olsun ki, dövlət mükafatlarını almış bəzi insanlar bu yaxınlarda gedib dövlət əleyhinə çıxışlar zamanı öz səslərini ucaldıblar" deyərək bu faktı pisləmişdi.

Məlumata görə, müxalifətin bu şənbə keçirmək istədiyi aksiyada da ciddi nəzarət olacaq. Gözlənilir ki, bu dəfə iqtidar büdcədə təşkilatlarından aksiyada iştirak edəcək şəxslərə qarşı daha sərt tədbirlərə əl atsın. Onların digər ailə üzvləri də bu cəza tədbirinin qurbanı olsun...

❑ **Musavat.com**

# "Yaxın 20 ildə neft istehlakı artacaq" - BP-dən açıqlama




**"Bizim hesablamalarımıza əsasən, yaxın 20 ildə dünya bazarında neft istehlakı artmaqda davam edəcək". "Report" xəbər verir ki, bunu Bakıda BP şirkətinin Rusiya və MDB ölkələri üzrə baş iqtisadçısı Vladimir Drebentsov bildirib: "Bununla belə, daha uzaq gələcəyə baxsaq, neft istehlakının modelində ciddi dəyişikliklər müşahidə edəcəyik. Məlumdur ki, neftin böyük hissəsinə tələb nəqliyyatla bağlıdır və elektromobillərin sayının artması tələbata təsir göstərəcək".**

V.Drebentsov həmçinin qeyd edib ki, növbəti iki ildə dünyada neftə tələbat əvvəlki ildən çox artacaq.

Neftin qiymətini də şərh edən iqtisadçı bildirib ki, neftin qiymətindəki hazırkı artım davamlı deyil: "Son aylardakı artım ABŞ-da baş verən qasırğa ilə bağlıdır. 2020-ci ildən sonra stabilləşmə üçün daha böyük şans var. 2022-ci ildən bazar daha stabil olacaq və artım üçün daha davamlı amillər olacaq".

Onun sözlərinə görə, daha sonra isə bazarda qiymət OPEC-in siyasəti və ABŞ-da şist neft hasilatının vəziyyətindən asılı olacaq: "Lakin əgər qiymətin artması şansı varsa, onun baş verməməsi riski da var. Hər şey ABŞ-ın şist neft hasilatının artımından asılıdır. ABŞ-da şist neft hasilatı gözlədiyimizdən 1,5 dəfə çox arta bilər".



# Rio-de-Janeyroda lüləkabab xiffəti

Samir SARI

**"Qarabağ"ın və milli futbol komandamızın pleymeykeri, braziliyalı Riçard Almeyda deyib ki, Bakıda hər şey yaxşıdır, pul-parası var, ailəsi sıxıntı, çətinlik çəkmir, intəhası (o, bu sözü ispanca deyib) Bakıda qoyun əti yeməkdən bezib.**

Adamın qoyun ətinə qarşı bu şəkildə kəskin çıxışı, əlbəttə ki, yerli qoyunsevərlərin heysiyyətinə toxuna bilər. Amma gəlin anlayışlı olaq. Riçard uzaq və kasıb bir ölkədə doğulub-böyüyüb. Orada camaat əlinə nə düşürsə yeyir, çünki qıtlıqdır, kasıblıqdır. Hamı Pele deyil ki. Almeyda da uzun illər müxtəlif ət növlərinin tamına baxıb, indi gəlib burda bir qədər fərqli duruma düşüb.

Mərc gələrəm ki, o, bircə həftə qoyun əti yeməsə, heydən düşər, ayaqları sözünə baxmaz, evdə arvadı danlayar, bazada məşqçiləri. İndi bir sözdür, deyir. Siz onu köz üstündə qıpqırmızı qızarmış, yağı damcılayan antrekotu dişinə çəkəndə, Beyləqan qoçunun ətindən taxta üstündə döyülüb doğranmış, səliqə ilə yoğurulub yumrulanmış, manqalda yaxşı-yaxşı bişirilmiş lüləkababı lavaşın arasına qoyub çeynəməmiş udanda, yağlı qoyun ətindən hazırlanmış pitinin qabının dibindəki sonuncu noxudu endirməyə çalışanda görəsiniz. Hələ bunun saciçisi, bozartması, qovurması və sair və ilaxırı var.

Qoyun ətindən bezmək olarmı?

Qoyun ətini sevməyən bizdən deyil.

Qoyun ətinə qarşı söz deyən qarşısında bizi görər, özü də əlişişli şəkildə.

Ancaq yenə də ehtimal etmək olar ki, qoyun əti Almeydanı kökəltdiyinə, formadan saldığına görə o, belə deyir. Qoyun əti yeyəndən sonra o, çəki atmaq üçün çox işləməli, tər tökməlidir axı.

Bu xüsusda adama ağır gələn söhbət budur: son illərdə elə qələmə verirlər ki, guya dünyada bizdən çox qoyun əti yeyən millət yoxdur. Elə deyil. Avstraliya bütün dünyaya qoyun əti satır, özləri də bizdən on dəfə çox yeyir.

Monqolustanın bozqırları başdan-başa qoyun sürüləridir. Türkmənistan qoyunları Orta Asiyada dillə deyilir. Hətta arada Qurban bayramında bərə ilə ölkəmizə də göndərirlər. Özbəkistan, Qazaxıstan da qoyunçuluq ölkəsidir.

Qardaş Türkiyənin qoyunları bəs qədərdir, İraqın, Suriyanın insanları müharibədə kütləvi şəkildə qırılsa da, qoyun sürülərinin əksəriyyətini salamat saxlaya biliblər.

Guya İngiltərədə qoyun saxlamır və yemirlər? Bal kimi də yeyirlər. Ya İtaliya, Fransa... Hamısı bəsləyir də, yeyir də.

Ancaq onların bizdən bir fərqi var ki, qida rasionlarına donuz əti də qatırlar. (Düzdür, son illər bizdə də restoranlarda kütləvi şəkildə "qaban əti" verirlər, amma müşahidəçilər deyirlər ki, o qədər qaban nəinki Qafqazda, heç Altay meşələrində də yoxdur).

Şovinistlik kimi çıxmasın, qoyun donuzdan üstün heyvandır. Söhbət metis və ya məlez qoyunlardan getmir. Bizim yerli qoyun sortları var ha, o quyruqları yerə dəyənlər, bax, onlar qoyun növünün ali irqi kimi bir şeydir.

Rusiyalı liberal-faşist Jirinovski vaxtilə qoyunlara qarşı fikir bildirməklə böyük səhv edib. O, Ceyrançöldə bəslənmiş qara qoçun kababından yemiş olsa, bu sözləri deməzdi, hətta "Azərbaycan qoyunu" deyiləndə ayağa durardı ki, ana yurdun ürəyinə toxuna bilər.

Yəni dediyim odur ki, qoyun ətinin azərbaycanlıların xarakterinə təsir etməsi barədə dəbdə olan klişeni (savadlı adamlar demişkən) parçalamaq, dağıtmaq vaxtıdır. Elə şey yoxdur.

Baxın, Almeyda o qədər qoyun əti yeyir, hətta artıq bezib, amma meydançada pələng kimi savaşır.

Vaxt gələcək, o burdan gedəcək, gedib öz ölkəsində, Rio-de-Janeyroda burda yediyi lülənin, antrekotun xiffətini çəkəcək.

Uzaq-uzaq ellərdə sırf Haramı qoyununun ətindən ötrü kövrəlib ağlayanlar olur.

Qoyunlarımızın qədrini bilməliyik. Sadəcə, bir azca xasiyyətimizin də üstündə çalışsaq, problem olmaz.

**P.S.** *Yazının nöqtəsi qoyulanda xəbər gəldi ki, Şəkidə 2 kəndə hücum çəkən canavarlar 18 baş qoyunu parçalayıb. Alçaq canavarlar! Min ildir qoyun yeyirlər, gör heç bezirlərmi, yaxud heç xasiyyətləri dəyişirmi?*

# YAP-çı deputatın başı dərddə - mandatı alına bilər

## Antikorrupsiya idarəsinin rəisi sabiq rektor Şəmsəddin Hacıyevin istintaqı və ifadəsinin alınması barədə nələr dedi?

**Azərbaycan Dövlət İqtisad Universitetinin (ADİU) sabiq rektoru, YAP-çı deputat Şəmsəddin Hacıyevin ali məktəbə rəhbərlik etdiyi dövrdə baş verən yeyintilərlə bağlı istintaqa çağırılması barədə xəbərlər təsdiqlənir. Yada salaq ki, ötən həftə "Yeni Müsavat" hüquq-mühafizə orqanlarındakı mənbəyə istinadən Ş.Hacıyevin prokurorluqda ifadəsi alındığını yazmışdı.**



Şəmsəddin Hacıyev

"Azərbaycan Dövlət İqtisad Universitetinin vəzifəli şəxsləri barəsində cinayət işi başlanılıb, hazırda istintaq hərəkətləri davam etdirilir". Bunu oktyabrın 25-də jurnalistlərə Baş Prokurorun müavini, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev deyib. K.Əliyev bildirib ki, konkret olaraq kimlərin məsuliyyətə cəlb olunması istintaqın yekununda bilinəcək: "Bu barədə mətbuata da məlumat verilib. İstintaqda nə qədər şəxsin dindirildiyini deyə bilmərəm. Yoxlamalar təyin etmişik. Sənədlərin götürülməsi üçün istintaq hərəkətləri davam etdirilir".

**Universitetin sabiq rektoru Ş.Hacıyevin dindirilməsi ilə bağlı suala cavab verən K.Əliyev bunları deyib:** "Bununla bağlı bir söz deyə bilmərəm. Çünki həmin işlə bağlı dindirmələr davam edir. Konkret adıçəkilən və digər şəxslərlə bağlı məlumat verə bilmərəm".

İdarə rəisinin açıqlaması Ş.Hacıyevin bir neçə gün əvvəl "mən bu məsələ ilə bağlı heç bir yerə dəvət olunmamışam və niyə də dəvət olunmalıyam ki?" deyərək, korrupsiya ilə bağlı istintaqa aidiyyəti olmadığının faktiki təkzibidir. Çünki K.Əliyev deputatla bağlı suala birmənalı yox deyə bilərdi. İdarə rəisinin konkret ad çəkməməsi və ya deputatın ifadəsinin alınmamamasını təkzib etməməsi Ş.Hacıyevin arxayınçılığının əsassız olduğunu sübut edir.

İdarə rəisinin Ş.Hacıyevin dindirilməsi ilə bağlı suala verdiyi cavab da sabiq rektorun vəziyyətinin yaxşı olmadığı barədə iddiaları doğrulayır. Yada salaq ki, bizə xəbər verən mənbə Ş.Hacıyevin deputat toxunulmazlığı səbəbindən istintaqa "qeyri- rəsmi" çağırıldığını iddia etmişdi.

K.Əliyev də dindirilmələrin aparıldığını təsdiq edib. İstintaqa digər şəxslərin də artıq cəlb edilməsi faktının təsdiqlənməsi də sabiq rektorun işini ağırlaşdıra bilər. Onun müavinləri, dekanlar və tikinti işləri ilə məşğul olan yaxınları və digər şəxslərin ifadələri YAP-çı deputatın sonrakı taleyi üçün həlledici ola bilər. Çünki bundan sonra sabiq rektorun məsuliyyətə cəlb olunma məsələsi gündəmə gələ bilər.

Əgər istintaq nəticəsində mənimsəmələrin sabiq rektorun dövründə baş verdiyi, Ş.Hacıyevin bu işdə məsuliyyəti olduğu təsdiqlənərsə, o halda Baş Prokurorluq təqdimatla Milli Məclisə müraciət etməlidir. Təqdimat Milli Məclisdə razılaşdırılarsa, onun mandatı ləğv olunmalıdır.

Qeyd edək ki, sentyabrın 21-də Azərbaycan Dövlət İqtisad Universitetinin vəzifəli şəxsləri barəsində cinayət işi başlanıb. Universitetdə dövlət büdcəsindən ayrılan vəsaitlərin və büdcədənkənar daxilolmaların proqnozlaşdırılması və icrasının auditinin nəticəsinə dair Hesablama Palatasından daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

İlkin araşdırma zamanı yoxlama dövrünü əhatə edən 18 may 2012-ci ildən 1 aprel 2014-cü il tarixədək olan müddət ərzində universitetin vəzifəli və digər maddi-məsul şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə edilərək təhsil haqlarının uçotu, yığılması və bank hesabına köçürülməsi, təhsil haqqı üzrə debitor-kreditor borclarının uçotda əks etdirilməsi ilə bağlı ağır nəticələrə səbəb olan ciddi qanun pozuntularına yol verilməsi, eləcə də külli miqdarda vəsaitin uçotdan yayındırılmasına əsaslı şübhələr müəyyən edildiyindən fakta görə Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 179.3.2-ci (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə külli miqdarda etibar edilmiş özgə əmlakını talama) maddələri ilə cinayət işi başlanıb.

Qeyd edək ki, 179.3.2-ci maddə üzrə 7 ildən 12 ilədək, 308.2 maddə ilə isə 3 ildən 8 ilədək cəza nəzərdə tutulur.

❑ **"YM"**

# Ədliyyə Nazirliyi və Baş Prokurorluq qaçan dustaqlarla bağlı birgə məlumat yaydı

## "Etapı zamanı E.Məmmədov və Ə.Ağamiyə münasibətdə "Həbs edilmiş şəxslərin müşayiət edilməsinə dair Qaydalar"ın tələblərinə riayət olunmayıb"

**Ədliyyə Nazirliyi və Baş Prokurorluq birgə məlumat yayıb.**



APA-nın xəbərinə görə, məlumatda deyilir ki, 23 oktyabr 2017-ci il tarixdə Bakı-Astara-Bakı planlı dəmir yolu qarovulu ilə xüsusi təyinatlı vaqonda Bakı şəhərinə etap olunan xüsusilə ağır cinayətlərlə təqsirləndirilməklə həbs edilmiş Etibar Ələkbər oğlu Məmmədov və Əli Rasim oğlu Ağami Biləcəri qəsəbəsi ərazisində müşayiət altından qaçmışlar.

Bununla əlaqədar Ədliyyə Nazirliyi tərəfindən dərhal Əməliyyat Qərargahı yaradılaraq həbsdən qaçmış şəxslərin digər hüquq-mühafizə orqanları ilə əlaqəli surətdə axtarışı və yaxalanması üzrə bütün zəruri tədbirlər görülür. Hadisənin baş verməsini yaradan şərait və səbəblərin araşdırılması üçün hərtərəfli prinsipial xidməti yoxlama aparılmışdır.

Xidməti yoxlamanın ilkin nəticələrinə əsasən vəzifə borclarını lazımınca yerinə yetirmədiklərinə görə ədliyyə nazirinin əmri ilə Penitensiar xidmətin Konvoy taborunun komandiri, ədliyyə polkovnik-leytenantı Bəhruz Abdullayev və taborun Qərargah rəisi vəzifəsini icra edən, ədliyyə mayoru Hikmət Sadıqov ədliyyə orqanlarından xaric edilmiş, taborun 2-ci konvoy bölüyünün komandiri, ədliyyə kapitanı Ruslan Zeynalov, 3-cü bölüyün komandiri, ədliyyə kapitanı Rza Xankişiyev və Qərargah rəisinin konvoy xidməti üzrə baş köməkçisi, ədliyyə kapitanı Rakif Məmmədov tutduqları vəzifədən azad olunmuşlar.

Bundan əlavə, həbs edilmiş şəxslərin vaqonda müşayiətini bilavasitə təmin edən qarovul rəisi Ceyhun Səmədov və digər 7 əməkdaş ədliyyə orqanlarından xaric edilmiş, Penitensiar Xidmətin bir çox digər aidiyyəti məsul işçiləri ciddi intizam məsuliyyətinə cəlb olunmuşlar.

Faktla bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 304.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən azadlıqdan məhrum etmə və ya həbs yerindən, yaxud mühafizə altından qaçma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanmaqla istintaq qrupu yaradılmış, dərhal təxirəsalınmaz istintaq hərəkətləri aparılmışdır. Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin ekspertlərinin iştirakı ilə hadisə yerinin müfəssəl müayinəsi həyata keçirilmiş, maddi sübutlar götürülmüş, şahidlər dindirilmiş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilmişdir.

İlkin istintaqla müəyyən edilmişdir ki, qarovul heyəti tərəfindən həbs edilmiş şəxslərin etapı zamanı E.Məmmədov və Ə.Ağamiyə münasibətdə "Həbs edilmiş şəxslərin müşayiət edilməsinə dair Qaydalar"ın tələblərinə riayət olunmamış və bu da fövqəladə hadisə - təqsirləndirilən şəxslərin həbsdən qaçmağı ilə nəticələnmişdir.

Bununla əlaqədar qarovul rəisi C.Səmədov, qarovul rəisinin köməkçiləri Fuad Hacıyev və Tural Platxanov Cinayət Məcəlləsinin 308.2-ci maddəsində nəzərdə tutulan əmələ görə cinayət məsuliyyətinə cəlb olunmuş və barələrində həbs-qətimkan tədbiri seçilmişdir.

Hazırda mühafizə altından qaçdıqlarına görə E.Məmmədov və Ə.Ağami Cinayət Məcəlləsinin 304.2.1-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs-qətimkan tədbiri seçilməklə axtarış elan olunmuşdur.

Cinayət işi üzrə E.Məmmədov və Ə.Ağaminin tutulması, eləcə də cinayətin baş vermə şəraiti, əməllərində cinayət tərkibi olan bütün şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində kompleks istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirlərinin icrası davam etdirilir.

YENİ MÜSAVAT
N 221 (6835) 26 oktyabr 2017

**Avropa Şurası Parlament Assambleyasının Azərbaycanla bağlı bir gündə iki qətnamə qəbul etməsindən sonra Avropa Şurası-Azərbaycan münasibətlərində gərginlik artıb. Hakimiyyət təmsilçiləri AŞ PA-nı Azərbaycana qərəzli münasibətdə ittiham edirlər. Deputatlar arasında hətta Azərbaycanın AŞ-dan çıxmaq qərarı verməsi çağırışı edənlər də var. Lakin bu çağırışa əks mövqedə olan deputatlar da var ki, mövqelərini Qarabağ məsələsini xüsusi önə çəkməklə əsaslandırırlar. Məsələn, deputat Zahid Oruc bildirib ki, Azərbaycan AŞ-dan çıxsa, bu, ermənilərin həmin qurumda əlini-qolunu açar. Deputatın sözlərinə görə, AŞ-dan çıxmaqla bağlı qərar versək, ermənilər bu fürsətdən istifadə edəcək. Dağlıq Qarabağın "müstəqilliyini" tanıtmaqdan tutmuş, digər məsələlərdə də bu fürsətdən yararlanmağa çalışacaqlar.**

# Avropa Şurası bizə lazımdırmı...

## **Mahmud Məmmədquliyev:** "Orada qalmalı və mövqelərimizi müdafiə etməliyik, Azərbaycanın AŞ-dakı fəaliyyətinə heç kim mane ola bilməz"



Deputatın mövqeyinin haqlı olduğunu **konfliktoloq Əvəz Həsənov** "Yeni Müsavat"a açıqlamasında bildirib: "Zahid Oruc kifayət qədər praqmatik adamdır. Hakimiyyətin dəstəkləyicilərindən biri olsa da yaxşı başa düşür ki, Azərbaycan AŞ-dan çıxsa, onun üçün yaxşı heç nə olmayacaq. Ən azından bir müddətdən sonra yenidən ora qayıtmaq üçün yol axtaracaqdır. Ümumiyyətlə, əgər ölkə üzv olduğu istənilən beynəlxalq qurumu tərk edirsə, bu onun imicinə böyük zərbədir. Əgər həmin ölkənin ciddi problemi yoxdursa, istənilən qurumla əməkdaşlığını öz istədiyi kimi qura bilər. Amma bizim Dağlıq Qarabağ problemimiz olduğu üçün bu cür beynəlxalq qurumdan çıxmağımız ermənilərin əl-qolunu açar. AŞ PA-da meydanı Ermənistana və onun dəstəkçilərinə buraxmaq olmaz".

**Jurnalist Eynulla Fətullayev isə hesab edir ki, AŞ-dan çıxmaq ölkəmizin avrointeqrasiyadan imtinası demək deyil:** "Bəziləri hələ də dərk etmir ki, Avropa Şurasından çıxmaq avrointeqrasiya yolundan imtina etmək deyil. Məsələn, Avropada Şərq Tərəfdaşlığı Proqramı, Avronest və Avronestin Parlament Assambleyası da var. Avropa Şurası ilə eyni məqsədlər və identik missiya daşıyan qurumdur. Əksinə, Avronest birbaşa Avropa İttifaqı ilə əməkdaşlığı təmin edən qurumdur. Avropa Şurası isə öz tarixi missiyasını yerinə yetirib, ümumiyyətlə, bu qurum ləğv edilməlidir... Özü də bu quruma daxil olan dövlətlər 5-6-sını çıxmaq şərtilə, artıq Avropa Birliyinin üzvləridir. Bu 5-6 dövlət isə içi Azərbaycan qarışıq, heç vaxt Avropa Birliyinə üzv qəbul edilməyəcək".

**"Düşünmürəm ki, Azərbaycanın Avropa Şurasından çıxması düzgün ideyadır. İkili standartlara və Azərbaycana qarşı ədalətsiz münasibətə baxmayaraq, güman edirəm ki, biz bu təşkilatda qalmalıyıq və öz mövqeyimizi müdafiə etməliyik".**

**Bunu isə virtualaz.org-a eksklüziv şərhində Azərbaycanın xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev deyib.**

**M.Məmmədquliyev Avropa İttifaqı ilə danışıqlara cavabdehdir.**

**M. Məmmədquliyev qeyd edib ki, hələ Azərbaycan AŞ-a daxil olmazdan əvvəl o, uzun illər ərzində bu strukturda Azərbaycanın nümayəndə heyətinə başçılıq edib.**

"Mərhum Heydər Əliyev Avropa Şurası ilə münasibətlərə böyük önəm verirdi. Məhz onun tapşırığı ilə biz bu təşkilata üzv olmaq üçün uzun müddət danışıqlar aparmışdıq. Düşünmürəm ki, bir neçə anti-Azərbaycan elementinə görə mövqelərimizdən geri çəkilməliyik. O ki qaldı Yaqlanda, o, vur-tut baş katibdir və əsla bütün təşkilat demək deyil. Bu gün var, sabah yoxdur. Amma Avropa Şurasında Azərbaycanın gözəl münasibətlər qurduğu 47 ölkə var", - nazir müavini bildirib.

**Onun sözlərinə görə, Azərbaycan AŞ-da başqa ölkələrin malik olduğu eyni hüquqlara malikdir:** "Biz bu təşkilata könüllü və şüurlu şəkildə daxil olmuşuq. Mövqeyim belədir ki, orada qalmalı və mövqelərimizi müdafiə etməliyik. Azərbaycanın Avropa Şurasındakı fəaliyyətinə heç kim mane ola bilməz".

**❑ E.SEYİDAĞA**

# Saakaşvilinin Ukraynada başlatdığı çadır dövrü - şou, yoxsa....

## **Şahin Cəfərli:** "O, hazırda özü də istəmədən Moskvanın marağına uyğun addımlar atır"

## **Yeganə Hacıyeva:** "Baş verənlər Saakaşvilinin iradəsindən asılı deyil, onun göstərişi və ya sifarişi ilə reallaşmır"



**Gürcüstanın keçmiş prezidenti, Odessanın sabiq qubernatoru Ukrayna müxalifətinin lideri Mixail Saakaşvili və tərəfdarları Ali Radanın qarşısında çadırlar qurub. Saakaşvili ukraynalıları artıq yeni mitinqə dəvət edib. İstəyir ki, xalq onu deportasiyadan qorusun. Ukrayna hakimiyyəti Odessanın keçmiş rəhbərinin qaçqınlıq statusu ilə bağlı müraciətini rədd edib. Amma o, təslim olmaq niyyətində deyil və artıq prezident Pyotr Poroşenkonun devrilməsinin planını cızır.**

Siyasətçi bildirib ki, deputatlar onun bütün tələblərini yerinə yetirməyənə qədər Ali Radanın qarşısından getməyəcək. Yəni ən azı yaxın iki həftə, çünki parlament üzvləri 7 noyabra qədər fasiləyə gediblər.

Bəs Saakaşvilinin Kiyevdə meydanda çadırlar qurması populizmdir yoxsa, illərdir sınaqdan çıxmış mübarizə üsulu kimi düzgün seçilmiş taktikadır? Çadır mübarizəsinə keçidin effekti olacaqmı?

**Politoloq Şahin Cəfərli bildirdi ki, Saakaşvili hazırda bir siyasətçi kimi mövcud olub-olmama savaşı verir. Vətəni Gürcüstanın qapıları onun üzünə bağlıdır, barəsində cinayət işləri var, üstəlik, qurucusu olduğu Vahid Milli Hərəkat ötən bazar günü yerli özünüidarəetmə orqanlarına keçirilən seçkilərdə bir daha məğlub oldu. Yəni Saakaşvilinin hələ ki vətənində hər hansı perspektivi yoxdur və siyasətçi kimi özünü göstərə biləcəyi yeganə meydan Ukraynadır:** "Ukraynada xalqın indiki hakimiyyətdən ciddi narazılığı var, insanların əksəriyyəti vəziyyətin müsbətə doğru dəyişmədiyini və ya az dəyişdiyini düşünür, yeni qüvvələrin iqtidara gəlməsini arzulayır. Saakaşvili təcrübəli siyasətçi kimi bu münbit zəmindən yararlanmağa çalışır. Müxalifət də ona müəyyən qədər dəstək verir. Lakin mən düşünürəm ki, Ukrayna müxalifəti, xüsusən Yuliya Timoşenko kimi siyasətin hər üzünü görmüş hiylәgər və populist lider, sadəcə olaraq, Saakaşvilidən öz məqsədləri üçün faydalanmağa çalışır. Onlar Saakaşvilini qabağa verərək bir tərəfdən Poroşenkonu daimi təzyiq altında saxlamağa, digər tərəfdən isə bütün mümkün neqativlərin Saakaşvilinin üzərində cəmləşməsinə, ondan bir növ ildırımötürən kimi istifadə etməyə çalışırlar. Qeyd etdiyimiz kimi, Ukrayna əhalisinin əksəriyyəti ölkədəki mövcud durumdan narazıdır, bu, aydındır. Lakin paytaxtda permanent etiraz aksiyalarının keçirilməsinə, ölkədə kövrək siyasi və sosial-iqtisadi sabitliyin pozularaq xaosun yaranması ehtimalına heç də hər kəs isti yanaşmır. İnsanlar anlayır ki, Ukraynada xaos və qarşıdurmanın yaranması birbaşa Rusiyanın marağına uyğundur. Münaqişənin başlanmasından bu yana Moskvanın əsas məqsədi məhz Ukraynanı içəridən qarışdırmaq, orada sabitliyin yaranmasına imkan verməmək, mümkün inkişaf meyllərinin qarşısını almaq və ölkəni daimi xaosa sürükləyərək Ukraynanın enerjisini tükətmək, bununla da onu Krımın itirilməsi ilə barışmağa, Donbas probleminin çözümündə isə Rusiyanın şərtlərini qəbul etməyə sövq etməkdən ibarətdir. Kiyevdə davamlı etiraz aksiyaları keçirmək, çadırlar quraraq meydanlarda gecələmək, ölkədə kövrək sabitliyin pozulmasına zəmin hazırlamaq əslində Rusiyanın əlinə oynamaq deməkdir. Yəni Saakaşvili hazırda özü də istəmədən Moskvanın marağına uyğun addımlar atır".

**Politoloqun sözlərinə görə, Ukrayna müxalifətinin onun arxasında gizlənməsinin səbəblərindən biri də budur. Timoşenko kimi hiylәgər liderlər çox yaxşı anlayırlar ki, əhali kütləvi aksiyalara müəyyən həddə qədər dəstək verə bilər, sabitliyin pozulmasına səbəb olacaq davamlı aksiyalar isə əhalini cəlb etmir və bu yola əl atan siyasətçinin xal toplamaq şansı azdır:** "Üstəlik, siyasətçilər də, vətəndaşlar da yaxşı bilir ki, ölkədə demokratik seçki institutu var və növbəti seçkilərdə Poroşenkonu qanuni yolla iqtidardan kənarlaşdırmaq ehtimalı realdır. Seçki yolu ilə vəziyyəti dəyişmək şansı varsa və hazırkı hakimiyyət nüfuzdan düşübsə, küçə yolu ilə gərginlik və xaos yaratmağa nə ehtiyac var? Ukrayna müxalifətinin buna ehtiyacı yoxdur, bu, yalnız Saakaşviliyə lazımdır ki, siyasi lider kimi mövcudluğunu davam etdirdiyini dünyaya göstərsin. Ukraynada hakimiyyət dəyişikliyi baş verərsə, yeni seçiləcək prezident və qurulacaq hökumət üzərində təsir imkanları qazansın, vətəndaşlığını geri qaytarsın və siyasi proseslərə təsir gücünə malik mühüm fiqur kimi Ukraynada qalmağa davam etsin. Ukraynada yeni Maydan üçün əlverişli zəmin mövcud deyil. Saakaşvilinin topladığı kütlənin kəmiyyət göstəriciləri də bunu bir daha sübut edir. Maydan hərəkatı o vaxt təkrarlanar ki, bütün milləti səfərbər edən iri çaplı neqativ hadisə baş versin. Hazırkı sosial-iqtisadi çətinliklər yüz minlərlə insanın küçələrə çıxmasına və yeni Maydan hadisələrinə səbəb ola bilməz".

**Siyasi ekspert Yeganə Hacıyeva isə bildirdi ki, Ukrayna postsovet ölkələrindən ən çox gərgin siyasi proseslərin getdiyi, məxməri və güc vasitəsilə dalbadal baş verən inqilabların şahidi olduğumuz bir ölkədir. Hazırda Ukraynada müşahidə edilən siyasi proseslərdə məhz Saakaşvilinin təkanverici bir güc olduğunu düşünmək yanlış olardı:** "Ukraynada baş verənlər Saakaşvilinin iradəsindən asılı deyil, onun göstərişi və ya sifarişi ilə baş vermir. Sadəcə, ölkədə və cəmiyyətdə mövcud hakimiyyətin siyasi və iqtisadi idarəçiliyi üzündən hökumətə qəzəbli kütlənin enerjisindən qaynaqlanır. Bu, təxminən 1992-ci ilin Azərbaycanında baş verən siyasi hadisələrə, müxtəlif qruplara xidmət edən üzvlərə malik hökumətin idarəetməsinə bənzəyir. Bu proseslərdə Saakaşvilinin siyasi texnoloq kimi mövcud şəraitdən istifadə etməsini söyləməmiz daha doğru olardı. Bu gün Ukrayna daxilində qlobal güclər balansını, güclərdən birinin çox aqressiv oyun tərzini nəzərə alaraq bu çadır mübarizəsi üsulunun yanlış olduğunu qeyd etmək istəyirəm. Bunu populizm də adlandırmaq istəmirəm, sadəcə, yanlış olaraq keçmiş illərin təcrübəsində istifadə cəhdi sayıram. Ancaq məsələ ondadır ki, zamanla bərabər siyasi yanaşmalar və mübarizə üsulları da dəyişmişdir. Ümumiyyətlə, müxtəlif regionlarda son illərin meydan hərəkatlarının demək olar ki, hamısı özünü doğrultmadı və bu proseslərin getdiyi ölkələr kənar təsir və oyunçular tərəfindən ən çirkin üsullarla region uğrunda mübarizə meydanına çevrildi. İtirən isə dövlətlər və xalqlar olur".

**❑ Etibar SEYİDAĞA**

# Çapar hesabı

Zamin HACI
zaminhaci@gmail.com

## "O yanı çəpər, bu yanı çəpər, İçində atlı çapar"

*(milli tapmaca)*

**Qərb siyasi avtoriteti türmədən buraxmağı tələb edirdi, bizim hökumət isə kriminal avtoriteti azad elədi. Gözəl cavabdır. Məncə, bu hadisəni qəşəng bir çərçivədə diplom kimi hazırlayıb avropalıların yaxasından asmaq olar. Qoy onlar "kürü, neft, təhlükəsizlik" kimi çərənləmə və çirkli bazarlıqlarla durumu hara gətirib çıxartdıqlarını anlasınlar, çünki bu xəmir hələ çox su aparacaqdır. Təzə yoğurmağa başlamışıq.**

Keçən həftə gözümə bir xəbər dəymişdi. Ekstrasensin maşınını vurmuşdular. Düzü, içini oxumağa həvəs olmadı, heç bilmirəm yoldaş ekstrasens salamatdırmı. Ancaq Stalin haqda bir anekdot dərhal yadıma düşmüşdü. Deyir, bir gün falçı gəlir Stalinin qəbuluna. Stalin əmr edir bunu dərhal aparıb təpəsinə paslı güllə çaxsınlar. Sonra da izah edir: bu geydirmə falçıdır, əgər həqiqi falçı olsa öldürüləcəyini bilib bura gəlməzdi. İndi bu ekstrasens də necə uzaqgörəndir ki, öz maşınını vuracaqlarını qanmayıbdır? Belə ekstrasensliyi nənəm də eləyər. Rəhmətlik arvad eləyirdi də. Misal üçün, bütün gəlinlərinə və yeznələrinə (istisnasız olaraq) cürbəcür ləqəblər qoşmuşdu. Canlı şahidiyəm ki, sonradan bu ləqəblərin hamısı hərlənib-fırlanıb gəlib öz yerinə oturmuşdu. Ailə sirri olduğu üçün geniş yaza bilmərəm.

Bəzi adamlar isə keçmişi düzgün qələmə vermir. Necə deyərlər, ən yaxın tariximizdən danışıram. Qədim söhbət olsa nə vardı, yola verərdik. Azərbaycanın müstəqilliyinin əleyhinə səs vermiş, hazırda Polşada həmin bu müstəqil dövlətin səfiri işləyən Həsən Həsənovun Camal Rəhimov adlı nəvəsi var. Camal müəllim bu yaxında intervüfason bir şey verib deyir ki, mənim idman uğurlarımda Azərbaycanın heç yolu yoxdur. Deyir, nə eləmişəmsə hamısını öz hesabıma eləmişəm.

Əlbəttə. Həsən müəllim də Polşaya özü bilet alıb gedibdir. Səfirliyi isə şəxsi hesabına saxlayır. Ümumiyyətlə, nə eləyirsinizsə düz eləyirsiniz, bu millətə nə eləsən, azdır. Ancaq 2008-ci ildə Azərbaycan dövləti 1 milyon 970 min avroya bir at alıb səni mindirib Pekin olimpiadasına göndərmişdi, yadına gəlirmi, Camal müəllim? Sən də getdin, orda elə birinci raundda atı nə təhər bizlədinsə ikiniz də dombalaq aşdınız. Bilirsənmi həmin o 2 milyon avroya yaxın pulla nə qədər ailə 2 ay yaşayardı? Tənbəllik etməyib lap hesablaya da bilərik: 2 milyon bölək 500 manat (guya bizdə rəsmi olaraq orta maaş bu qədərdir), bu eləyir 4 min adam. Bunu da iki yerə bölsək qalır 2 min nəfər. İki min nəfərin iki aylıq maaşını yıxıb yerə ayaqlamısan, hələ danışırsan da. Halbuki, biz o atı alıb, türkün məsəli, sənin altına qoymuşduq ki, medaldan-zaddan alasan, ermənilərə yanıq verək, respublikamızın şöhrəti aləmə yayılsın, ofşor şirkətlərimiz çoxalsın, nə bilim, Azərbaycan dünyaya Günəş kimi doğsun. İndi deyirsən nə olubsa öz hesabıma olub. Canın sağ olsun, de. Bizim çörəyimizin duzu haçan olub ki, atımızın da üzəngisini basan olsun?

Sözgəlişi, ta nənə-baba teması açılıb, birini də özümdən yazım. Mənim 4-cü ulu babam İmamalı Güney Azərbaycandan indiki respublikamızın ərazisinə köçüb gəlibdir. Bu kişinin o tayda əməllicə hörməti varmış, çünki Qacar şahzadəsi, ruslara qarşı döyüşmüş qəhrəman Abbas Mirzənin qoşununda vəzifə tuturmuş, ancaq quzeydə təzə vaxtlar bir az qanmazlıqlarla üzləşib. Həmin vaxt bir kəlam işlədib, o indi biz tərəflərdə aforizm kimi bir söz olubdur: "O tayda mənə İmamalı xan deyirdilər, bu tayda atımın yüyənini tutan yoxdur". *(Yüyən atın başına keçirilən ip kimi bir şeydir, minici düşəndə kimsə qulluq məqsədiylə adətən yüyəni ondan alıb atı harasa bağlayır).*

Nədənsə bir əski "Mozalan" süjeti də son çağlar tez-tez yadıma düşür. Orda Arif Quliyevin oynadığı obrazı hansısa dərdə dəva üçün göndərirdilər, o isə gedib dəvə gətirirdi. Yəni bizim belə süjetlərə gülən vaxtlarımız da olmuşdur.



# Ermənistanın blokadasına Gürcüstan da qoşulur - düşmən şokda

## İşğalçı ölkənin daha bir qorxulu "röyası" çin olur; **gürcü politoloq:** "Ermənistan dünya iqtisadiyyatına qovuşmaq istəyirsə..."

**Ermənistan Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinin altını, belə görünür ki, hələ çox çəkəcək. Gerçək belədir ki, Dağlıq Qarabağ məsələsində tutduğu haqsız və əsassız mövqeyi üzündən getdikcə daha ağır izolyasiyaya tuş gələn, bir-birinin ardınca regional iqtisadi, energetik layihələrdən (Bakı-Tiflis-Ceyhan neft, Bakı-Tiflis-Ərzurum qaz kəmərləri, tikilməkdə olan Cənub Qaz Dəhlizi) aralı salınan işğalçı ölkə paralel surətdə Rusiyadan daha güclü asılılığa düşməkdə, sürətlə boşalmaqda, olan-qalan suverenliyini də itirməkdədir. İqtisadi göstəricilərin ilbəil pisləşməsi də öz yerində.**

Ən böyük problem isə, erməni iqtisadçıların da etiraf elədikləri kimi, blokada rejimidir. Aydındır ki, öz qonşuları ilə normal münasibət saxlamaq istəməyən, hər hansı sanballı yeraltı sərvətdən məhrum və müharibə şəraitində olan heç bir ölkə inkişaf edə və dünya iqtisadiyyatına inteqrasiya oluna bilməz. Ermənistanın isə üstəlik, dünya okeanına çıxışı yoxdur.

***

Təcavüzkar üçün daha bir pis xəbər odur ki, Ermənistana qarşı izolyasiya siyasətinə getdikcə qonşu Gürcüstan da qoşulmaqdadır. Yaxud qoşulmaq zorundadır - təbii ki, Türkiyə və Azərbaycanla genişlənən əməkdaşlığın məntiqi diktəsi olaraq. Artıq başa çatan Bakı-Tiflis-Qars dəmir yolu layihəsi bu qəbildəndir. Beləcə, Gürcüstanın da faktiki şəkildə işğalçıya qarşı izolyasiyaya cəlb edilməsi rəsmi İrəvana öz qonşuları ilə nə qədər gec deyil, dil tapmalı olması haqda növbəti bir siqnaldır.

Əfsus ki, Ermənistan rəhbərliyi ilk növbədə bu barədə düşünmək əvəzinə, ildırdir Azərbaycana, Türkiyəyə, hətta Gürcüstana qarşı torpaq iddialarından əl çəkmir. 10 il öncə (2007) BTQ layihəsi işə düşəndə isə Ermənistan, erməni lobbisi, xüsusən də ABŞ-dakı erməni diasporu əlindən gələni elədi, ABŞ Konqresini belə işə qoşdu ki, layihə əngəllənsin.

Lakin nə qədər salışsalar da, bədxahlar, məkrli dairələr öz istəklərinə nail ola bilmədilər. Azərbaycanın əsas maliyyə sponsorluğu elədiyi bu strateji əhəmiyyətli dəmiryolu artıq hazırdır və dünən BTQ dəmir yolundan keçəcək ilk yük həmin yolla göndərilib. Belə ki, Qazaxıstanın Kustanay stansiyasından 82 konteynerlik yük qatarı Türkiyənin Mersin stansiyasına yola salınıb. Bu barədə "AzrRusTrans" məlumat yayıb. Oktyabrın 30-da isə Bakıda yeni dəmir yolunun təntənəli açılış mərasimi olacaq.

***

Erməni qaynaqlarının yazdıqlarından qənaət hasil olur ki, bu xəbər gözlənildiyi kimi, düşmən ölkəni xoflandırıb. Məsələn, musavat.com-un məlumatına görə, lragir.am saytının əməkdaşının BTQ dəmir yolunun işə salınmasının əhəmiyyəti barədə gürcü politoloq, Tiflisdəki Avropa Tədqiqatları Mərkəzinin rəhbəri Kaxa Qoqolaşviliyə ünvanladığı suallardan bu təlaşlı ovqatı qabarıq görmək olar.

**Yeni dəmir yolunun əhəmiyyəti ilə bağlı erməni müxbirin sualına gürcü ekspertin cavabı yəqin ki, erməni tərəfini daha pəjmürdə edəcək:** "Fikrimcə, Gürcüstan üçün Avropa ilə dəmir yolu əlaqəsi olduqca vacibdir. Bakı-Tiflis-Qars dəmir yolunun işə salınması ölkəmizə Avropa istiqamətində effektli yükdaşıma və öz ticarətini inkişaf etdirmək imkanı yaradacaq. Asiya ilə Avropa arasında körpünün işə salınması Gürcüstan üçün olduqca vacibdir. Bu, - geosiyasi bir funksiyadır".

**Daha sonra erməni jurnalist "BTQ Ermənistanın izolyasiyasını daha da pisləşdirə bilərmi" sualını verib. Politoloqun cavabı isə müəyyən mənada diplomatik olub:** "Biz ona çalışmalıyıq ki, bu yolla Avropaya erməni malları da yola salınsın. Başa düşürük ki, Türkiyə ilə Ermənistanın münasibətləri yaxşı deyil və yəqin ki, Türkiyə tərəfi erməni yüklərinin daşınmasına qarşı olacaq. Ancaq fikrimcə, gələcəkdə Ermənistan bu yoldan istifadə edə biləcək - necə ki, indi öz yüklərini Avropaya göndərmək üçün gürcü limanlarından istifadə edə bilir. Türkiyə ilə münasibətlərin yaxşılaşdırılması Ermənistan üçün həm də dünya iqtisadiyyatına qovuşmaq üçün əsl sıçrayış olardı. Gələcəkdə yəqin ki, belə də olacaq. Bundan ötrü siyasi ziddiyyətlərin aradan qaldırılması üçün hər şeyi eləmək lazımdır".

***

Ancaq aydındır ki, Türkiyə qeyd-şərtsiz, Azərbaycanın maraqlarını, Dağlıq Qarabağ məsələsini ciddiyə almadan Ermənistanla əlaqələri bərpa eləməyəcək. Bundan ötrü əsas şərtlər bəllidir: saxta soyqırım iddialarından imtina və ölkəmizin ərazi bütövlüyünün tanınması - yəni işğalçı qüvvələrin qeyd-şərtsiz Dağlıq Qarabağ və ətraf yeddi rayondan çıxarılması.

Yalnız bundan sonra Ermənistana Avropaya əlverişli nəqliyyat çıxışı üçün, regional meqa-layihələrə qoşulmaq üçün "yaşıl işıq" yandırıla bilər. Əks halda, Ermənistan Rusiyanın vassalı qalmaqda davam edəcək və sovetdən qalma iqtisadiyyatı heç vaxt "rüşeym" halından çıxmayacaq. Paralel surətdə onun tranzit ərazi kimi olan-qalan önəmi də sıfırlanacaq.

Qısası, həmişəki kimi, seçim yenə Ermənistanın, daha dəqiqi, erməni xalqınındır. Bir rus məsəlində deyildiyi kimi, "Suda batanın problemi öncə suda batanın problemidir". Yəni ən əvvəl o, özü-özünə kömək etməyə cəhd göstərməlidir, nəinki başqasından imdad diləməlidir.

**Sual da budur: edəcəkmi?**

❑ Siyasət şöbəsi

**İŞİD Suriya və İraqda ardıcıl şəkildə məğlub olaraq ələ keçirdiyi əraziləri itirir. 2014-cü ildə İraq və Suriyanın az qala yarısını ələ keçirən İŞİD-in nəzarətində olan bölgələrdə 12 milyon insan yaşayırdı. Ancaq hazırda Mosul, Raqqa kimi "paytaxtları-nı" itirən qruplaşmanın nəzarətində 10 faizə qədər ərazi qalıb və günü-gündən kiçilməkdə davam edir.**

# İraq və Suriyadan sonra İŞİD-çilər

## Geri qayıdan İŞİD üzvləri dünya ölkələrini necə təhdid edir, terror təhlükəsinin qarşısını almaq üçün nə etmək lazım olacaq?

Və indi ən aktual sual İŞİD-də döyüşən əcnəbilərin gələcək taleyidir. Çünki İŞİD-in kifayət qədər çox sayda üzvü olub. Bəzi mənbələrə görə, müxtəlif vaxtlarda İŞİD-in 80-120 min arası üzvünün olduğu haqda məlumatlar mediaya yayılıb. Bunların əsas hissəsi yerli əhali olub. Suriyada 50 min, İraqda isə 30-50 min arası İŞİD silahlısının olması haqda məlumatlara rast gəlinib. Suriya və kürd mənbələri isə Səddam Hüseyn ordusunun keçmiş əsgər və zabitlərinin hesabına İŞİD-in üzvlərinin daha çox olduğunu iddia edib.

ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin 2015-ci ildəki araşdırmasına əsasən İŞİD sıralarında 32 min nəfərə yaxın əcnəbi olub. Bunların 5-6 mini Tunis, 2 mini Səudiyyə Ərəbistanı, 2400-2700 nəfər arası Rusiya, 2 min İordaniya, 1800 Fransa, 1500 Mərakeş, 1400 Türkiyə, 900 Livan, 700 Almaniya, 600 İngiltərə, 600 Liviya, 600 Misir, 600-ə qədər Şimali İraq kürdləri, 514 İndoneziya, 500 Pakistan, 500 Özbəkistan, 440 Belçika, 400 Tacikistan, 360 Türkmənistan, 350 Serbiya, 330 Bosniya, 300 Çin vətəndaşıdır. Azərbaycan hökumətinin məlumatına görə, 900 nəfər Azərbaycan vətəndaşı İŞİD və digər qeyri-qanuni silahlı birləşmələrə qoşulub.

İndi isə müharibə başa çatır və İŞİD silahlılarının bir qismi geri qayıdır. BBC-nin məqaləsində deyilir ki, ABŞ-da yerləşən "The Soufan Centre" beyin mərkəzinin hazırladığı hesabatda son aylarda 5600 İŞİD üzvünün ölkələrinə dönməsi ilə bağlı məlumat var. Araşdırmada artıq 33 ölkədə geri dönüş haqqında qeyd olunur.

Mərkəzin eksperti doktor Lorenzo Vidino onların qaçdıqları ölkələrdə nə dərəcədə təhlükəli olacaqlarına diqqəti çəkib. Keçmiş İŞİD üzvlərinin geri qayıtdıqdan və ya başqa ölkəyə köçdükdən sonra qisas əməliyyatları keçirməsi, terror törətmələri təhlükəsi var. Üstəlik, söhbət 30 min nəfərlik bir qrupdan gedir. Baxmayaraq ki, onların bir qismi öldürülüb.

Böyük Britaniya təhlükəsizlik xidməti MI5-in rəhbəri bu həftə bildirib ki, İŞİD-ə qoşulan 800 britaniyalıdan çox azı geri qayıdıb və onlardan ən az 130 nəfəri döyüşlərdə ölüb. "Qalan xarici döyüşçülər çox güman ki, İŞİD-in təxminən 10 il əvvəl yarandığı ilk günlərdəki kimi qrup şəklində mübarizəyə davam edəcəklər: terror hücumlarından vətəndaş müharibəsinə qədər müxtəlif ölümcül hadisələrə səbəb olan qüvvə şəklində" - deyə BBC-nin analizində qeyd olunur.

Doğrudur, İraqda və Suriyada ələ keçən İŞİD üzvləri edam edilirlər. İraqda Mosul və Telafer əməliyyatından sonra xeyli sayda İŞİD üzvü sağ ələ keçirilib. Onların İraq qanunları ilə mühakimə olunacağı və edam ediləcəkləri gözlənilir. Ancaq analitiklərə görə, ələ keçməyən minlərlə qruplaşma üzvü gizli yollarla Türkiyə, Livan və İordaniya üzərindən qaça bilirlər.



BBC Türkiyə ərazisində İŞİD-in dəstək şəbəkəsinin hələ də güclü olduğunu və Suriyadan xarici döyüşçülərin çıxarılmasında əsas rolu məhz bu şəbəkənin oynadığını yazıb. Üstəlik, son üç il ərzində ölkə boyunca baş verən qanlı hücumlara nəzər salsaq, Türkiyə hakimiyyəti bu axından haqlı narahatlıq keçirir.

Qeyd edək ki, sahə ekspertlərinin fikrincə, İŞİD-in İraq və Suriyada məğlubiyyətdən sonra iki yolu qalır. Birincisi, savaşı yeni bölgələrə daşımaq. Məlum olduğu kimi, Afrikada, Ərəbistan yarımadasında, Asiyada İŞİD-in nəzarət etdiyi bölgələr var. Artıq bəzi məlumatlara görə, İraq və Suriyadan çıxarılan İŞİD-çilərin bir qismi Yəmən, Sinay yarımadası, Şimali Qafqaz və Şərqi Asiyada İŞİD-in yaratdığı "vilayətlərə" qoşulub. Ötən il ABŞ-da aparılan hesablamalara əsasən Liviyada 6500 və Əfqanıstanda isə yüzlərlə İŞİD terrorçusu var. ABŞ ötən il Əfqanıstandakı tunellərdə hücum vaxtı 94 döyüşçünün öldürüldüyünü deyirlər. Eyni zamanda yeni terror və müharibə bölgələrinin yaranması və mövcud olanlarında döyüşlərin şiddətlənməsi təhlükəsi var.

Daha bir variant isə İŞİD-in daha əvvəl "əl-Qaidə"nin etdiyi kimi, "yer altına" çəkilib terror törətməkdir. İŞİD-in son zamanlar əsasən Avropa ölkələrini hədəfə alması bu taktikanın da işlədildiyini göstərir. Bu isə geri qayıdanlarla bağlı narahatlığı daha da artırır.

Araşdırmada qeyd olunur ki, İŞİD üzvlərinin bir çoxu ölkələrinə qayıtmağa çalışır ki, bu da həmin ölkələri narahat edir. Çünki qayıdıb gələnlərin yenidən silahlı hücumlarda iştirak etməsi, terror törətməsi riski var. Bu risk qarşısında ən həssas olan region isə Şimali Afrika ölkələridir. Onlardan biri Tunisdir ki, 6 min vətəndaşı İŞİD-ə üzv olub. Adambaşına İŞİD-ə qoşulanların sayına görə Tunis dünya lideridir. Bundan başqa, körfəzin ərəb ölkələri, həmçinin Rusiya, Qafqaz və bir neçə Mərkəzi Asiya ölkələrinin də təsirə düşmək şansı böyükdür. Çünki İŞİD-in "hərbi naziri" də daxil olmaqla, əsas zərbə qüvvəsi aparıcı döyüşçüləri məhz bu regionlardan olanlardır.

Avropa üçün də ciddi təhdid hələ qalır. Avropadan 6 min nəfərin İŞİD-ə qoşulması və indi onların böyük hissəsinin geri qayıtması ciddi narahatlıq doğurur. Hazırda məlumatlara görə, 1000 nəfərə qədər İŞİD üzvü Avropaya qayıdıb.

Qeyd edək ki, hələ iki il əvvəl Avropa Birliyi ölkələri, o cümlədən Türkiyə, ABŞ kimi ölkələr İŞİD və digər terror qruplaşmalarına qoşulanlar haqda məlumat bankı hazırlayıb. Buna əsasən artıq geri dönən terrorçuları müəyyən edib sərhəddə yaxalamaq mümkündür.

Britaniya Daxili İşlər Nazirliyi keçən il Suriya və İraqdan qayıdan 400 britaniyalı arasında 54 nəfərin həbs edildiyini açıqlayıb. Analoji vəziyyət digər ölkələrdə də mövcuddur. Azərbaycan hüquq-mühafizə orqanları geri qayıdan İŞİD üzvlərini həbs edir. Dövlət Təhlükəsizlik Xidməti rəisinin müavini İlqar Musayev bir qədər əvvəl bildirib ki, terrorçu təşkilatlara qoşulmuş 82 nəfər Azərbaycana qayıtdıqdan sonra cinayət məsuliyyətinə cəlb olunub. Bundan başqa, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanuna əsasən, terrorçu təşkilatların tərkibində döyüşdükləri üçün son bir ildə 151 nəfər ölkə vətəndaşlığından məhrum edilib.

Qeyd edək ki, bir sıra ölkələr, o cümlədən Azərbaycan xaricdə silahlı birləşmələrdə döyüşənlərlə bağlı cəzaları sərtləşdirib. 2014-cü ildə Azərbaycan Respublikası Cinayət Məcəlləsində müvafiq dəyişikliklər aparılıb. Hazırda Cinayət Məcəlləsinin 279-cu maddəsi "Qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma"ya görə cəzaları nəzərdə tutur.

Bu maddəyə əsasən Azərbaycan qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə, dini düşmənçilik, dini radikalizm və ya dini fanatik silahlı birləşmələr və ya qruplar yaratma, həmin birləşmə və ya qruplarda iştirak etmə və bu birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə 20 ilədək həbs cəzası ilə cəzalandırılır.

Qeyd edək ki, bir qədər əvvəl BBC yeniyetmə yaşlarında olan İŞİD üzvlərini Avropada aşkar edib. Bu gənclərin bir çoxu gənc yaşlarına rəğmən radikalizmdən əziyyət çəkir. Bu səbəbdən də Avropa ölkələri geri qayıdan xarici döyüşçülərin deradikalizasiya proqramlarına yatırımlar edirlər. Danimarkanın Aarhus şəhərində reabilitasiya və cəmiyyətə inteqrasiya xidmətləri təklif edir. Fransanın 12 deradikalizasiya mərkəzi planı isə təxirə salınıb. Ancaq bütün bunlara baxmayaraq Fransada, daha sonra Belçika və Britaniyada törədilən terror aktları geri qayıdanlar təhlükəsinin ciddi olduğunu ortaya qoydu. Çünki İŞİD-in "virtual xilafəti" adlanan güclü virtual mövcudluğu müəyyən bir şəkildə davamlılıq göstərəcək və dünyanın hər tərəfindən tərəfdar toplayaraq daha çox terror hücumları təşkil edəcək. Bu isə təhdid riskini güclü edir.

❑ **Kənan RÖVŞƏNOĞLU**




# Erməni saytları ordumuza və media qurumlarımıza qarşı təxribat törətdi

**Ermənistanda fəaliyyət göstərən times.am saytı Azərbaycan ordusuna və "Yeni Müsavat" media qrupuna qarşı təxribata əl atıb. Erməni saytının dünənki buraxılışında "Azərbaycan hərbçisi Gürcüstana qaçıb" başlıqlı yazı yerləşdirilib. Yazıda media qrupumuza daxil olan rusdilli minval.az saytına "istinadən" göstərilir ki, azərbaycanlı zabit Valeh Qarayev fərarilik etməyə məcbur olub, çünki o, ya erməni güllələsindən öləcəkmiş, ya da məsuliyyətə cəlb olunacaqmış.**




Erməni saytı həmin materialın minval.az saytında getdiyini "sübut edən" kollaj da hazırlayıb.

Ancaq minval.az saytının rəhbərliyi bildirir ki, nə göstərilən tarixdə, nə ondan əvvəl, nə də ondan sonra saytda belə bir material yerləşdirilməyib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən isə bildirirlər ki, "Silahlı Qüvvələrimizdə Valeh Qarayev ad və soyadlı nə zabit, nə gizir, nə də mülki işçi belə yoxdur".

MN-dən belə bir materialın hansısa Azərbaycan saytında dərc olunmadığını bildiklərini, bunun növbəti təxribat olduğunu qeyd ediblər.

Minval.az saytının rəhbərliyi Ermənistan jurnalistikasına müraciət edərək, jurnalistika etikasını unutmamağı və minval.az-ın adından dezinformasiya yaymamağı tövsiyə edib.

Bundan başqa, məlum olub ki, erməni saytları rus dilində xəbərlər yayan vesti.az saytına qarşı da bənzər "fəndlər"dən istifadə edərək, bu saytın azərbaycanlı hərbçinin kənd adamları tərəfindən əzişdirildiyini yazdığını yazıblar və yenə də sözlərinin sübutu olaraq "kollaj" düzəldiblər. Vesti.az saytının rəhbərliyi xüsusi açıqlamaya yaraq saytda belə bir materialın getmədiyini, ermənilərin dezinformasiya yaydığını bildirib.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 221 (6835) 26 oktyabr 2017

# SSRİ-ni çökdürən xalq cəbhələrinin taleyi...

## Sabir Rüstəmxanlı: “Normal olmayan məsələ Azərbaycan Xalq Cəbhəsinin partiyalara çevrilməsidir”



Sabir Rüstəmxanlı

**SSRİ-nin tarixin arxivinə göndərilməsi prosesini həyata keçirən - 1980-ci illərin sonlarında və 90-cı illərin əvvəllərində postsovet ölkələrində yaranmış Xalq Cəbhəsi hərəkatlarının taleyi çoxlarına maraqlıdır. Məlumat üçün bildirək ki, 80-cı illərin sonlarında sovet imperiyasına qarşı bu hərəkatlar Baltikyanı respublikalar və Azərbaycanda yaradılmışdı...**

İlk dəfə Fransada 30-cu illərdə “Xalq Cəbhəsi” adında yaradılan hərəkat öz təsirlərini sonralar SSRİ-dən qurtulmağa çalışan bəzi respublikalara göstərdi. Hazırda hərəkat formasında olmasa da, Azərbaycanda bu adda bəzi siyasi partiyalar mövcuddur. Digər Baltikyanı dövlətlərdə isə Xalq Cəbhəsi adında hər hansı bir siyasi təşkilat adına rast gəlmək mümkün deyil.

**Azərbaycanda Xalq Cəbhəsi Hərəkatını yaradan şəxslərdən biri - VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı** son dövrlərdə vaxtilə Xalq Cəbhəsi hərəkatları olan ölkələrlə əlaqələrinin kəsildiyini bildirdi: “Baltikyanı respublikalarda bu adda siyasi qurumların hazırda mövcud olub-olmadığını deyə bilmərəm. Çünki son dövrlərdə əlaqələrim zəifləyib. Bu, sırf Azərbaycana məxsus ideya deyildi. Bu ideya başqa ölkələrdən gəlmişdi. Bunun yaranması ilə bağlı müxtəlif fikirlər söylənilir. Amma biz onun harada və necə bir niyyətlə yaranmasını geniş müzakirə etməmişdik. Çünki ümumi xətt məlum idi. Əsas məqsəd SSRİ-dən ayrılmaq və imperiyanı süquta uğratmaq idi. Biz yaxşı bilirik ki, xalq cəbhələrinin əksəriyyəti xalqı idarə etmək məqsədilə yaradılmışdı. İlk dəfə Azadlıq meydanında belə bir hərəkatın yaradılması barədə fikir səsləndi. O zaman 18 gün meydanı Nemət Pənahlı və mən idarə etdim. Çıxışlarımın birində bəzi respublikalarda Xalq Cəbhəsinin yaradıldığını bildirərək, bizdə də yaradılmasının vacibliyindən danışdım. O vaxt meydanda bəzi şəxslər var idi ki, Xalq Cəbhəsini elə orada yaratmaq istəyirdilər. Hətta bu barədə bildirişlər də yayılmışdı. Amma meydan çox qarışıq idi, kütlə hərəkatı idi. Sonu yaxşı olmayan nəticələrə gətirib çıxara bilərdi. Ona görə ümumi qərarımız bu oldu ki, mitinq bitəndən sonra hərəkat yaradılsın. Belə də etdik. Tez-tez müxtəlif yerlərdə yığışıb, sonunda hərəkatı yaratdıq. Təsis konfransı da keçirmişdik. Konfrans üçün yer almaqda çoxlu əziyyətlərim oldu. Ora rəsmilər gəlmişdi, çox sadə üsulla onların hərəsinə bir kitab bağışlayıb, icazəni ala bildim. Bunun şahidi olanlar da var. Yaranma prosesi 1988-ci ildə meydandan başlayıb, bir il sonra yayda tamamlandı”.

**S.Rüstəmxanlı o zaman digər respublikalardakı xalq cəbhələri ilə də müntəzəm əlaqələr saxladıqlarını da bildirdi:** “O vaxt həmin respublikalarda çıxan qəzetləri alırdım. Litvadakı qurultayda iştirak etmişdim. Bundan əlavə, Litvanın demokratik qüvvələrinin toplantılarında iştirakçı olmuşdum. Baltikyanı respublikalarda ilk dəfə hiss etdim ki, SSRİ-nin sonu çatıb. Bizdə o vaxt belə abı-hava hiss olunmurdu. Oradan bizə qəzetlər də gəlib çatırdı. Özbəkistan, Türkmənistan kimi yerlərdən daim gəlib-gedən dostlarımız var idi. Mən nazir işləyərkən Türkmənistanın demokratik qəzetlərini Azərbaycanda çap etdirmişik. "Azərbaycan" qəzeti vasitəsilə onların məqalələrinin yayılmasına çox kömək etmişəm. Yəni tək bizə kömək olunmayıb, biz də kömək etmişik. Çeçenlər və digər xalqlara da eyni köməyi göstərmişik. Bunlar qarşılıqlı yardımlaşma idi. Hamı o imperiyanın sonunu görür, tez ayrılmaq istəyirdi".

**VHP sədri Xalq Cəbhəsi adında siyasi partiyaların mövcudluğu ilə razılaşmır:** “Xalq Cəbhəsi Hərəkatı sözün həqiqi mənasında ölkənin müstəqilliyi yolunda böyük güc idi. Sonralar onun hakimiyyətə gəlməsi məsələsi mübahisələr doğurdu. Bəzilərimiz onun hakimiyyətə gəlməsini istəyir, bəzilərimiz də müxalifətdə qalıb hakimiyyətə təsir göstərməklə vəziyyətin dəyişməsini istəyirdik. Bunların hamısı normaldır. Normal olmayan məsələ Xalq Cəbhəsi Hərəkatının partiyalara çevrilməsidir. Partiya bir qrupdur, bir dəstə adamın bir yerə yığılmasıdır. Amma cəbhə böyük bir hərəkatdır. Hərəkatı bir deyil, bir neçə partiyaya çevirmək o vaxt başladığımız işi başqa səmtə yönəltməkdir”.

❑ **Cavanşir ABBASLI**

# “Qarabağ əlillərinə avtomobil əvəzinə motorlu araba vermək istəyirlər”

## Etimad Əsədov: “... Heç olmasa, bizə yaxşı bir yerdə qəbiristanlıq üçün yer ayırsınlar”

**Birinci Qarabağ müharibəsinin aktiv iştirakçısı olan qazilər bu gün ciddi sosial problemlər yaşayır. Bu barədə bizimlə söhbətində Qarabağ Qaziləri Birliyinin rəhbəri Etimad Əsədov məlumat verdi. Bildirdi ki, başı qazi və şəhid ailələrinin çoxsaylı problemlərini həll etməyə qarışıb:**

**- İctimai Birliyin fəaliyyətini davam etdiririk, qazilərimizin problemlərini həll etməyə çalışırıq. Hamı kimi Azərbaycanın reallığını yaşayırıq.**

***- İctimai Birliyin xətti ilə layihələriniz varmı? Hazırda hansısa layihədə işləyirsinizmi?***

- QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə mütəmadi layihələrimiz olur. Vətənpərvərliyin təbliğatı, əlillərin maarifləndirilməsi, şəhid və əlil övladları üçün müxtəlif kurslar təşkil edirik - ingilis dili, kompüter və sair. İctimai Birlik olaraq çalışırıq ki, dövlətin verdiyi imkanlardan qazilərimizin problemlərini həll etmək, qazi və şəhid övladlarının inkişafı üçün maksimum istifadə edək.

***- Qarabağ qaziləri və şəhidlərinin sığorta haqqının ödənilməsi ilə bağlı problem həll olunurmu? Bu sahədə işlərin gedişi sizi qane edirmi?***

- Çox ağrılı bir məsələdir. Bildiyiniz kimi, Qarabağ müharibəsində şəhid və əlil olanlar üçün icbari sığorta haqqı ödənməlidir. Ona “qanpulu” deyilir. On beş ildən çoxdur bu məsələ problem olaraq qalır. Bu problemi həll etmək üçün Konstitusiya Məhkəməsinə qədər getmişik. 28 yanvar 2014-cü ildə Konstitusiya Məhkəməsi qəti qərar çıxarıb ki, həmin vəsait Qarabağ əlili və şəhid ailələrinə ödənsin. Sadəcə, qərarda qeyd olunub ki, ödənmə qaydası qısa zaman kəsiyində Milli Məclis tərəfindən müəyyənləşdirilsin. Bu “qısa zaman kəsiyi” də ki, 3 ildir bitib-tükənmir. Çox təəssüf ki, mütəmadi olaraq deputatlarla - Hadı Rəcəbli, Siyavuş Novruzov və digərləri ilə görüşlərimiz olsa da, ortada bir nəticə yoxdur. Hətta gedib Milli Məclisin qarşısında da toplaşdıq, bir sıra millət vəkillərinə dərdimizi demişik. Onlar da “həll edəcəyik” deyə-deyə vaxtı uzadırlar. Təsəvvür edin ki, bütün sahələr üzrə Azərbaycan dövlətindən qat-qat geri qalan Ermənistanda ölənlərə 20 min dollar, əlil olanlara 10 min dollar çoxdan ödənilib. Amma bizdə hələ də qazilər və şəhid ailələri qapılarda süründürülür. Elə adam var ki, özü şəhid olub, qanpulu verilməyib, sonra oğlu da şəhid olub. Bu, Azərbaycanın adına yaraşmayan bir haldır.

***- Hökumət qurumlarından hər hansı dəstək almağa çalışırsınızmı?***

- Millət vəkilləri deyirlər ki, Konstitusiya Məhkəməsi yanlış qərar çıxarıb, bu iş bizlik deyil, hökumətlikdir. Əvvəla, necə ola bilər ki, Konstitusiya Məhkəməsi yanlış qərar çıxarsın? İkincisi də o qərarın yanlış olması ilə bağlı Milli Məclisin rəy vermək hüququ yoxdur. Milli Məclis qaydaları hazırlayıb, təsdiq edib göndərməlidir hökumətə - Nazirlər Kabinetinə. Biz bir neçə əlil təşkilatı öz təşəbbüsümüzlə baş nazirə müraciət etdik. Baş nazirlər görüşüb məsələni müzakirə etmək istədik. Təəssüf ki, oradan bizə yazılı cavab vermədilər. Yalnız bir xanım dedi ki, indi ölkəmizdə maliyyə vəziyyəti ağırdır, bir qədər səbir edin, düzələcək. Bununla da işlərini bitmiş saydılar. Ədliyyə Nazirliyinin Məhkəmə Qərarlarının İcrası Baş İdarəsində də olmuşuq. Maliyyə Nazirliyində də olmuşuq, Maliyyə Bazarlarına Nəzarət Palatasında da. Onlar deyiblər ki, məsələni cənab prezidentə çatdırmışıq, hazırda biz onun tapşırığı ilə problemin həlli üzərində işləyirik, maliyyə axtarırıq, tapanda həmin vəsait ödəniləcək.

***- Təxminən nə qədər vəsaitdən söhbət gedir?***

- Biz bu işlə bağlı Azərbaycanda mövcud olan bütün məhkəmə instansiyalarını keçmişik. Məhkəmələrə gələn sığorta şirkətinin nümayəndələri deyirdilər ki, haradasa 150 milyon manatdır ödəniləsi məbləğ. Bu, Azərbaycan dövləti üçün böyük bir məbləğ deyil. Amma 25 min ailə üçün 11 min manat çox böyük məbləğdir.

***- Etimad bəy, aldığımız məlumata görə, Qarabağ əlilləri üçün avtomobillərin verilməsində bəzi problemlər yaranıb. 2014-cü ilədək növbəyə götürülənlərə verilmir. Sizdə bununla bağlı məlumat varmı?***

- Bu məlumat doğrudur. Belə bir problem var. Əlilləri maşın növbəsinə götürmürlər, böyük süründürməçilik, imtinalar var. Bilmirəm burada hansı maraqlar güdülür, amma ciddi çətinliklər yaradılır. Hətta hazırda növbədə olan 200-300 əlilə maşın verilmir. Səlim müəllim təzə nazir olanda bu sahədə irəliləyiş oldu, növbədə olanların əksəriyyətinə avtomobil verildi. Amma sonradan həm növbəyə götürməni dayandırıblar, həm də növbədə olanlara avtomobil əvəzinə motorlu araba veriləcəyini deyirlər. Mən sual edirəm: motorlu araba ilə əlillər hara gedə biləcəklər? Dünyada ən ucuz qiymətə olan “Lifan”ı vətən uğrunda canından, sağlamlığından olan insanlara layiq görmürlər? Bu gün küçələrə baxsanız, məmur balaları 300-500 minlik, hətta 1 milyonluq maşınlarda şütüyürlər. Törədilən qəzalara baxırsan, baş nazirin müavininin nəvəsi 500 minlik maşınla adam öldürür, icra başçısının müavininin oğlu 200 minliklə adam öldürür. Məmurlar, onların övladları AA seriyası ilə yüz minlərlə manat dəyərində maşınlarda gəzirlər. Torpaq uğurunda şikəst olmuş, əlini-ayağını, gözünü itirmiş şəxs 6-7 min manatlıq maşına layiq görülmür. Bu, başda Səlim Müslümov olmaq şərtilə, Azərbaycan məmurlarının Qarabağ qazilərinə, vətən uğrunda döyüşən şəxslərə qarşı böyük haqsızlığıdır.

***- Qarabağ əlili və şəhid ailələrinə mənzil verilməsi sahəsində vəziyyət sizi qane edirmi? Burada da narazılıqların olduğu deyilir...***

- Prezident İlham Əliyevin tapşırığı olmuşdu ki, 2018-ci ilədək bütün Qarabağ əlili və şəhid ailələrinə mənzil verilməsi təmin olunsun. Təəssüf ki, Səlim Müslümov nazir olandan bəri bu sahədə də problemlər artıb. 5 min nəfərə yaxın Qarabağ əlili və şəhid ailəsi növbədədir 20 ildir. İldə 120-150 adama ev verirlər. Bu hesabla getsə, növbəyə duran şəxslərə başqa yerdə



“ev” verəsi olacaqlar - qəbir evi. 25-30 yaşında əlil olan şəxs 40 il gözləməlidir ev almaq üçün? 70 yaşdan sonra verəcəklər ona evi? Ondansa heç olmasa, yaxşı bir yerdə qəbiristanlıq üçün yer ayırsınlar bizə. Cənab prezidentin tapşırığına əməl olunmur. Əminəm ki, Səlim müəllim cənab prezidentə çatdırsa ki, Qarabağ əlilləri və şəhid ailələrinə ev vermək üçün bu qədər vəsaitə ehtiyac var, o, dərhal göstəriş verib pulu ayırar. Amma cənab nazir bunu etmir, elə təəssürat yaradılır ki, sanki heç bir problem yoxdur. Əslində isə problemlər var və çox ciddidir.

***- Bu problemləri nazirin özünün diqqətinə çatdırmısınızmı? Onunla görüşmək və hər şeyi özü ilə müzakirə etmək daha yaxşı olmazmı?***

- Dəfələrlə nazirə müraciət etmişik, problemləri qaldırmışıq. Hətta bu yaxınlarda bir neçə əlil təşkilatının rəhbərləri olaraq açıq müraciət etdik ki, çoxlu problemlər var, nazir bizimlə görüşsün, müzakirələr aparaq. Əlillərin işə götürülməsi üzrə kvotaya əməl olunmur, maşın, ev növbəsinə götürmürlər. Müraciətimizə heç bir cavab verilmədi, qəbul edib-etmədiklərini də demədilər. Halbuki qanunla müraciətə 15 gün müddətində cavab verilməlidir. Verilmir, problemlər də tökülüb qalır.

***- Etimad bəy, gələn il ölkədə prezident seçkisi keçiriləcək. Qarabağ qaziləri həmişə seçki proseslərində aktiv iştirakı ilə seçilir. Bu dəfə necə, hansısa formada prosesə qatılacaqsınızmı?***

- Qazilər Azərbaycan xalqının qəhrəman övladlarıdır. Onlar həmişə ictimai-siyasi proseslərdə aktiv iştirak edirlər. İndiyədək bütün seçkilərdə Bakıda və regionlarda olan qardaşlarımız ən aktiv şəkildə iştirak ediblər. Gələn il də iştirak edəcəyik, amma formasını hələ müəyyənləşdirməmişik. Seçkilərə bir qədər var hələ, yeqin ki, bunu seçkiqabağı dövrdə edəcəyik.

❑ **Dünya SAKİT**

# "Sərkisyan Moskvanın kuklasıdır" - politoloq

## Ermənistan prezidenti Cenevrə görüşündən sonra dediklərini də dandı; növbəti görüşü "səbirsizliklə gözlədiyini" iddia etdi

**Azərbaycan ərazilərini işğalda saxlayan Ermənistanın təcavüzkar davranışları Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Angelino Alfano ilə görüşdə də müzakirə mövzusu olub.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüş Palermoda keçirilən ATƏT-in Aralıq Dənizi Konfransı çərçivəsində baş tutub. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan son danışıqlar prosesinə toxunan nazir Elmar Məmmədyarov, nizamlanma ilə bağlı ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri və Helsinki Yekun Aktına əsaslanan ədalətli mövqeyini bir daha bəyan edib. O, Avropa İttifaqının Təhlükəsizlik Strategiyasında təsbit olunduğu kimi, dövlətlərin suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi təməl prinsiplərə sadiqliyin bütün münaqişələrə münasibətdə vahid və birmənalı şəkildə ifadə olunmasının vacibliyini vurğulayıb.

Angelino Alfano gələn il ATƏT-ə sədrliyi dövründə ölkəsinin prioritetlərinə toxunaraq İtaliyanın münaqişənin ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə sülh yolu ilə həllinə yardım edə biləcək səyləri dəstəklədiyini deyib.

Ancaq reallıq budur ki, Ermənistan nə beynəlxalq hüquqa, nə insanlıq amilinə dəyər verməyərək təcavüzkarlığına davam etməkdə qərarlıdır. İşğalçı ölkənin rəhbərliyinin son zamanlar artistlik etməsi də heyrət doğurur. Cenevrə danışıqlarında özünü "mələk" kimi aparan, az sonra güzəştin olmayacağını bəyan edən Serj Sərkisyan son zamanlar təmas xəttindəki təxribatlara Azərbaycanın olduqca sərt reaksiya verməsinin ardınca yenə də fərqli qiyafədə görünməyə çalışıb.

**"Ermənistan bu mərhələdə Qarabağ probleminin hərbi yolla həlli niyyətində deyil". Virtualaz.org-un Ermənistan prezidentinin mətbuat xidmətinə istinadən məlumatına görə, bunu prezident Serj Sərkisyan Müdafiə Nazirliyi Milli Tədqiqat Universitetində yeni tədris proqramının başlanmasına həsr edilmiş iclasında bildirib. S.Sərkisyan deyib ki, problemin sülh nizamlanması, digər məsələlərlə yanaşı, Ermənistanın işğal etdiyi Dağlıq Qarabağın əhalisi üçün istənilən hərbi təhlükəni istisna etməlidir.** "Bu münaqişənin həqiqətən hərbi həlli yoxdur. Buna görə bir əllə atəş açmaq və başqası ilə onu həll etmək üçün danışıqlar aparmaq mümkün deyil. Biz ya danışıqlar aparır, ya da atəş açırıq. Biz hər iki varianta hazırıq", - deyə S.Sərkisyan vurğulayıb.



Onun sözlərinə görə, danışıqlar qarşılıqlı etimad mühitində və silahların ikitərəfli tətbiq edilməməsi şəraitində aparılmalıdır. S.Sərkisyanın Azərbaycan xalqı ilə düşmən olmadığı barədə açıqlaması da təəccüblüdür. Hansı ki, bu adam Xocalı soyqırımını törətdiyinə görə dəfələrlə fəxarətlə danışıb.

Azərbaycan Müdafiə Nazirliyi isə ordumuzun əsgərinin qətlə yetirilməsindən sonra baş verəcək hadisələrə görə bütün məsuliyyətin Ermənistanın üzərində qalacağı barədə xəbərdar edib və nazir düşmənin istənilən təxribatına sərt cavab verilməsi barədə əmr verib. Hərbi ekspertlər də növbəti hərbi əməliyyatların hər an başlaya biləcəyini bəyan ediblər. Bu isə danışıqların üstündən xətt çəkilməsi deməkdir və məsuliyyəti də işğalçı daşıyır. Məhz bu ərəfədə Serj Sərkisyanın "səbirsizliklə İlham Əliyevlə görüşümüzü gözləyirəm", - deyə yeni cildə girməsi təsadüfi deyil. Sərkisyan özünə haqq qazandırmağa çalışıb: "Səmimi deyirəm, Cenevrədəki danışıqların ardından Azərbaycan tərəfinin, guya oradakı hansısa razılıqları pozduğum barədə məqamı qəzəblə vurğulamağa çalışmasından sonra məndə qəribə vəziyyət yarandı. Düzü, bu qəribədir və mən bizim Azərbaycan prezidenti İlham Əliyevlə növbəti görüşümüzü çox səbirsizliklə gözləyirəm, həmkarımdan soruşmaq üçün ki, onda məhz nə qəzəb doğurub? Bundan başqa, o insanlar çıxış edirlər ki, bizim söhbətimizdən heç də xəbərdar olmalı deyildilər, çünki biz təklikdə söhbət edirdik və əgər biz heç kəsə heç nə danışmamağa razılaşmışdıqsa, onda onun köməkçiləri, məsləhətçiləri və ya başqaları mövzu ilə necə tanış olublar? Sizi inandırıram, mən bizim söhbətimizdən heç yerdə bir kəlmə də dilə gətirməmişəm" - Sərkisyan "təəccüblə" (?-E.P.) bildirib. **Erməni prezidenti İsveçrənin erməni icması ilə görüşdə dediyi sözləri özü sitat gətirib və sual verib:** "Bəyəm mənim onda dediklərimdə nəsə yeni bir şey var? Mən artıq 25 ildir dediklərimi, 25 il haqqında danışdıqlarımızı təkrarlamışam..."

Yarım ayda bir neçə cildə girən S.Sərkisyanla danışıqların mənasızlığını artıq hər kəs bilir. Hətta Ermənistanda da onun fikirləri ciddiyə alınmır. Çünki bu adam aprel döyüşlərindən sonra əraziləri "qaytarmaq üçün" Azərbaycana "vaxt" vermişdi, əks təqdirdə, danışıqlara qatılmayacağını bildirmişdi.

**İşğalçı ölkənin rəhbərliyinin destruktiv addımlarının fonunda nələrin gözlənildiyi barədə danışan politoloq Hikmət Hacızadə "Yeni Müsavat"a dedi ki, hazırda Qarabağda genişmiqyaslı müharibə gözləmir:** "Xırda insidentlər davam edəcək. Əgər Azərbaycan Moskvanın razılığını ala bilibsə, onda orta irimiqyasli əməlliyyat keçirilə bilər - aprel müharibəsi kimi".

**Bəs Sərkisyan gerşəkdən danışıqların davamını istəyirmi hazırda? Yoxsa gərginlik ona daha çox lazımdır? H.Hacızadə:** "Sərkisyan Moskvanın kuklasıdır. Moskva nə istəyəcəksə, Sərkisyan da onu edəcək. Rusiya isə təmas xəttinə öz qoşununu yeritmək istəyir və bütün real danışıqlar bunun ətrafinda gedir".

# "Bakı Ermənistanla sərhədlərini bağlamaq üçün İrana müraciət etməlidir"

## Qüdrət Həsənquliyev: "İcra etmirlərsə, eybi yox, o zaman biz də öz işimizi bilərik..."

**"Mən sizin "Yeni Müsavat"dakı Qarabağ üçün Kərkük modeli - İran sərhədi bağlayır və..." sərlövhəli yazınızı oxumuşdum və fikirlərinizi birmənalı olaraq bölüşürəm". BAXCP sədri, deputat Qüdrət Həsənquliyev bu fikirləri əməkdaşımızla söhbətində bildirib.**

Sözügedən müəllif yazısında müsəlman qonşumuz İranın da, qardaş Türkiyə kimi Ermənistanla sərhədlərini qapaması halında işğalçı Ermənistanın Azərbaycan ərazilərinə iddialarına qısa müddət ərzində son qoymasının mümkünlüyündən bəhs olunur.

Xatırladaq ki, bir neçə gün əvvəl Türkiyə və İranın "müstəqil dövlət" olmaq iddiasına düşən İraq Kürdüstanı ilə sərhədlərini bağlaması nəticəsində kürd silahlıları geri çəkildi və Kərkük qan tökülmədən azad edildi. Q.Həsənquliyev bu variantın Qarabağ məsələsinin həlli üçün də keçərli olduğunu deyir: "Düşünürəm ki, bizim xarici işlər naziri təkrar həm Türkiyə, həm İrana müraciət etməlidir ki, Ermənistanla hər cür əlaqələri dondursunlar. Məsələn, necə ki, ABŞ İrana sanksiya tətbiq edəndə bu ölkənin hansısa şirkətləri ilə əlaqələri qadağan edir, Türkiyə və İran da şirkətlərinə Ermənistanla ticarət əlaqələrini qadağan etməlidir. Ancaq bildiyimiz kimi, ildən-ilə Türkiyə və İranın Ermənistanla ticarət dövriyyəsi artır. Bu yaxınlarda Rusiyanın kənd təsərrüfat naziri Putinə şikayət edirdi ki, Türkiyə özünün tomat və pomidorunu Belarus, Ermənistan və Azərbaycan vasitəsilə Rusiyaya satır. Türkiyə Ermənistanla sərhədlərini bağlayıb, əlbəttə, biz buna görə onlara çox minnətdarıq. Amma şirkətlər səviyyəsində ticarət əlaqələrini də dayandırmalıdır - o cümlədən İran. Buna görə də dövlət səviyyəsində rəsmi müraciət olmalıdır".

**Deputat rəsmi Bakının Tehran və Ankaraya müraciətinin vacibliyi barədə daha sonra bunları bildirib:** "Bir var, biz mətbuatda deyirik, yaxud ayrı-ayrı səviyyələrdə bildirilir, beynəlxalq təşkilatlarda prezident bu barədə çıxışlar edir. Elə bu yaxınlarda Azərbaycan prezidenti Türkiyədə bəyan etdi ki, "Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz". Amma yenə də Azərbaycan Xarici İşlər Nazirliyinin rəsmi müraciəti olmalıdır. Necə ki, rəsmi Bağdad baş nazir səviyyəsində qonşu ölkələrə kürdlərlə bağlı müraciət etdi, bizim də baş nazir, yaxud da xarici işlər naziri bununla əlaqədar olaraq Türkiyə və İrana müraciət etməlidir, bu müraciət də mətbuatda yayılmalıdır. Bir var bizim xarici işlər naziri hansısa tədbirdə bununla bağlı fikirlərini söyləsin, bir də var ki, Tehrana rəsmi müraciət etsin".

Qeyd edək ki, bundan əvvəl dəfələrlə eyni məzmunlu çağırışlar olsa da, konkret olaraq İran hakimiyyəti məscidləri donuz fermasına çevirən Ermənistanla əlaqələrini nəinki dayandırmayıb, əksinə, daha da inkişaf etdirib.

Elə bu günlərdə xəbər yayıldı ki, İran İslam Respublikası Azərbaycan ərazilərinin 20 faizini işğal etmiş Ermənistana dəstəyini davam etdirir. İndi də Tehran İrəvana daha sərfəli qiymətlərlə təbii qaz verməyi hədəfləyib. Bu barədə məlumatı İranın iqtisadiyyat və maliyyə nazirinin müavini Robert Beglaryan verib. AzadlıqRadiosuna verdiyi müsahibədə Beglaryan qeyd edib ki, İranın Ermənistana təklif edəcəyi təbii qazın qiymətləri Moskvanın İrəvana satdığı qazın qiymətindən də sərfəli olacaq (Newscenter.az).

Bir neçə gün əvvəl isə Ermənistanın enerji naziri Tehranın Moskvadan sərfəli qiymətlər təklif etmədiyini bildirmişdi. Yaxın vaxtlarda Tehranla İrəvan arasında yeni qaz anlaşmasının rəsmiləşəcəyi nəzərdə tutulur. Ermənilərin də etiraf etdiyi kimi, "İran nəfəsliyi" Ermənistan üçün müstəsna əhəmiyyətə malikdir. Müsəlman qonşumuz isə hətta Azərbaycan rəhbərliyinin məscid dağıdan işğalçı ölkə ilə bağlı sonuncu çağırışına rəğmən, işğalçı ölkə ilə növbəti layihələrə imza atmağa hazırlıq görür.



Qüdrət Həsənquliyev

**Q.Həsənquliyev isə Tehranın hansı mövqedə dayanmasından asılı olmayaraq, rəsmi Bakının çağırışını vacib sayır:** "İcra etmirlərsə, eybi yox, qoy etməsinlər. Ancaq o zaman biz də öz işimizi bilərik, İrandakı bizim azərbaycanlılar, bütün müsəlmanlar görsünlər ki, İran Kərküklə bağlı bu addımı atdı, amma Azərbaycana münasibətdə eyni mövqedən çıxış etmədi. Yəni bizim də torpaqlar işğal altında olduğu halda Tehran fərqli mövqedə dayandı. Həmçinin kənar təsirlər altına düşmüş dindarlar da real münasibəti görsünlər. İstənilən halda, mən düşünürəm ki, indiki şəraitdə belə bir müraciətin edilməsinə ehtiyac yaranıb, bunu etmək lazımdır. Həm də bu, Azərbaycanın daxilində siyasətin düzgün qurulmasına, Azərbaycan insanının bəzi məsələlərə ayıq gözlə baxmasına imkan yaradacaq. Məsələn, biz bilirik ki, İraq hökuməti Tehranın nəzarəti altındadır. Baxın, mətbuatdan oxuyuram ki, İraq hökuməti imamların 40 mərasimində iştirak etmək üçün Azərbaycandan 4 min insanı öz vəsaiti hesabına Kərbəlaya dəvət edib. İraqın hansı durumda olduğunu, orda necə iqtisadi çətinliklərin möbvcudluğunu hər kəs bilir. Amma belə bir şəraitdə 4 min insanın bütün nəqliyyat, qalmaq xərclərinin hamısını öz üzərinə götürür. Belə səfərlərin təşkilindən daha çox siyasi məqsədlər üçün istifadə olunur. Bir daha vurğulayıram ki, rəsmi Bakının Tehrana belə bir müraciətinin olacağı təqdirdə - mən əminəm ki, İran bu müraciətə "yox" deyəcək - o zaman bu, Azərbaycan hökumətinin və siyasətçilərinin xalqla işləməsi, təbliğatın düzgün qurulmasına çox böyük imkan verəcək. Ona görə də belə bir müraciətin edilməsi son dərəcə zəruridir".

YENİ MÜSAVAT
N 221 (6835) 26 oktyabr 2017

**Adıəzbər "WikiLeaks" saytı gör bu yaxınlarda neyləyib: Ötən həftə Maltada avtomobili partladılaraq öldürülən jurnalist Dafne Karuana Qalitsiyanın qatillərini ifşa etmək xəyalına düşüb. "Qatilləri ifşa edən hər cür informasiyaya 20 min avro ödəməyə hazırıq!" elanı neçə gündür saytın manşetindədir.**

# Avtomobilə qoyulan bombanı necə aşkarlamalı...

## Maşınında partladılıb öldürülən məşhurlar



16 oktyabrda baş vermiş bu cinayət barədə yerli "Time of Malta" eşidin nə yazır: "Dafne Karuana Qalitsiyanın oğlu Metyu da anası kimi araşdırmaçı jurnalistdir. Partlayışdan üççə dəqiqə sonra Metyu hadisə yerindən reportaj hazırlayıb. Hisslərə qapılmayıb bu zaman. Peşəkar vəzifə borcunu yerinə yetirib. Anası da belə edərdi, bizcə".

Rəhmətlik hakerlərin yardımı ilə Panama qeydiyyatlı "Mossack Fonseca" hüquq şirkətinin qara arxivinə girib çox sayda məxfi məlumat toplamışdı ordan. Bəli, mətbuatda nəsə partlada bilərsən. Ancaq belələrinin özünü də adətən partladıb külünü havaya sovururlar sonra...

"Panama sənədləri"nin coğrafi əhatə dairəsi çox genişdi. Yəni gəlin bu sənədləri qaxınc edib elə bircə Azərbaycana zillənməyək. Orda Rusiya, Britaniya, Çin, Ukrayna, İslandiya, habelə onlarla digər ölkə rəsmilərinin adı çəkilib. Sənədləri çap edilib. Sənədlərdəki ən ciddi ittihamlar Malta hakim siyasi elitası üzvlərinə qarşıdır: **"Baş nazir Yozef Muskat Malta pasportlarını yaxşı nağd pul əvəzində Rusiya vətəndaşlarına satırdı".**

İfşaedici sənədlər bir ara Malta parlamentində müzakirəyə, səs-küyə səbəb olub. O vaxt da bir polis işçisi - Ramon Mifsud mətbuata xəbərdarlıq ünvanlayıb - **"Bu qadını təzək kimi divara çırpaq lazımdı".**

Rəhmətliyin oğlu Metyu Qalitsiya indi bax bu ipuclarını bir yerə yığaraq özəl tədqiqata başlayıb. Gərək gələcəkdə hansı hədiyyələr çıxacaq bu Şaxta babanın yekə torbasından.

***

Dafna Karuane Qalitsiyanın həyatına son qoymuş minalanmış avtomobillərə Avropa kriminalistləri "Car bomb" deyərlər. Müsəlman terrorçular, misal üçün, İŞİD-çilər, bu cür avtomobilləri zarafatyana, yaxud tam ciddi şəkildə "Cəhad-mobil" adlandırıb mövzunu bir növ islamlaşdırıblar. İndi harada, hansı xarabada bir avtomobil göyə sovrulursa, polisin bütün diqqəti yönəlir yerli islam icması tərəfə. Yazıqların əlindən ilk olaraq avtomobilləri alınır. Götürülür nəzarətə.

Nəqliyyata bomba qoymaq mövzusu qədim tarixə malikdir. İlk oxşar təcrübələr Hollandiyadan, 16-cı əsrdən başlayır.

***

O zamanlar "Brander" adlanan yüngül qayıqlara xeyli tezalışan maddələr, xeyli barıt yüklənərdi əvvəlcə. Sonra həmin branderlər gizlicə, səssiz-səmirsiz yaxınlaşardılar yekə, çox yelkənli gəmilərin



böyrünə. Təxribatçılar bu branderlərə qəfil od vurub sonra tələsik özlərini dərin sulara atardılar. Branderlər olmasa, İspan kralı Filipp 16-cı əsrdə bəlkə də Britaniyanı işğal edərdi. Göyərtəsi tezalışan qətran məhlulları ilə dolu çoxsaylı kiçik branderlər o vaxtlar Britaniyanın köməyinə gəlirlər.

Qısa döyüşdən sonra branderlər o yekəlikdə İspan donanmasını yandırıb dənizin dibinə qərq edir.

Bu təcrübənin quruda təkrarı əfsanəvi Napaleonun adı ilə bağlıdır. 24 dekabr 1800-cü ildə barıtla dolu bir fayton yol kənarında sakitcə dayanıb Napaleonun yolunu gözləyirmiş. Hökmdarın qızıl karetası faytonla cütləşdiyi vaxt qəfil dəhşətli partlayış baş verir. Yer-göy silkələnsə də Napaleon silkələnmir. Əksinə, o, çox böyük maraqla qarşılayır bu partlayışı. Yavərlərinə tapşırır ki, bu təcrübədən döyüş zamanı lazımınca istifadə etsinlər.

Neynək, Dafne Karuane Qalitsiya bəli, Napeleon deyildi. Sadə qadındı. Özü də jurnalist. Yazıq. Canını belə partlayışlardan qorumağı bacarmadı.

***

Avtomobillərə partlayıcı vasitələri yerləşdirmək, belə deyək, peşəkarların işidir. Həvəskar işi deyil bu.

Avtomobilə istənilən qədər partlayıcı maddə yerləşdirmək mümkündür. Partlayıcını avtomobilin hər nöqtəsində gizlətmək olar. Təcrübəli terrorçular bir qayda olaraq bu partlayıcıları adətən sükan altına bərkidirlər. Kənara çəkilərlər sonra. Çalışarlar avtomobillə aralarında məsafə çox olmasın. Sonra şəhadət barmaqları gedər uzaqdan komanda verən cihazın üzərinə...

Partlayıcının elektrik naqilləri bu zaman adətən açar yuvasına calanılır. Açarı bircə dəfə sağa-sola çevirmək bəs edir ki, avtomobil havaya sovrulsun. Parlayışın vüsəti avto-





mobildəki yanacağın miqdarından da asılıdır. Partlayıcı avtomobilin altına adətən maqnit vasitəsi ilə bərkidilir.

Rusiyada bu cür cinayətlər hər il öz təkmilləşməyi, yenilikləri ilə yadda qalır. Rusiya killerləri son zamanlar adi qumbaranı götürüb bərkidirlər avtomobilə. Halqasına ip bağlayıb digər ucunu bir başqa yerə düyünləyirlər. Avtomobil hərəkətə keçincə, vəssalam, qumbara partlayır. 90-cı illərdə bir çox rus kriminal nüfuz sahibləri, o cümlədən məşhur "qanuni oğru" Silvestr-Timofeyev də bu cür qətlə yetirilib. Eyni dəst-xəttə çeçen lideri Zalimxan Yandarbiyevin qətlində riayət edilib. Dafne Karuane Qalitsiyanın qətlində oxşar dəst-xətt müşahidə olunubsa, həə, bu, rusların işidir.

***

Falçıların fikrincə, cümə günü ayın 13-nə düşürsə, vaxsey, qanınız getdi. Evdə oturub küçəyə çıxmayın. Qətərdə yaşayan çeçen mücahidi Zəlimxan Yandarbiyev isə bərk müsəlmandı. Falçılara inanmırdı. "Cümə günü, ayın 13" fenomeninə də həmçinin. Ancaq Moskvadan Dohaya ezam edilmiş rus killlerləri, QRU zabitləri A. Belaşkov, V. Boqaçev 2004-cü ilin 13 fevralında, məhz cümə günü öz xidməti vəzifələrini yerinə yetirərək böyük dağıdıcılıq gücünə malik partlayıcını Yandarbiyevin avtomobili altına bərkidirlər. Parlayış nəticəsində Yandarbiyev iki cangüdəni ilə birgə dünyasını dəyişir. Oğlu ağır bədən xəsarətləri alır.

"The Washington Post" qəzeti sonrakı hadisələri belə təsvir edir indi: **"İpucu, məscid həyətindəki qara avtofurqondaydı. Şahidlər furqonun dövlət qeydiyyat nömrələrini xatırlayıb istintaqı lazımş ünvana yönləndirdilər. Furqonu kirayə vermiş şirkət dərhal nəzarətə götürülür. Şirkətin müşahidə kameralarındakı görüntülər bitdə-bitdə araşdırılır. Kadrlarda müstəntiqlər A. Belaşkov ilə V. Boqaçevi aşkarlayıb həyəcandan nəfəslərini kəsirlər. Bir an nəfəs almağa cürət belə etməyirlər. Sonra müstəntiqlərin ağlı qayıdır başlarına. Cinayətin bütün halqalarını, xronikasını addım-addım bərpa etmək, şükür, müstəntiqlərə müyəssər olur. Killerlər əvvəl tam nəzarətə götürülür».**

Müqəssirlərin diplomatik statusu olmadığından həbsləri tez baş tutur.

Məhkəmədə ifadə verən müqəssirlər deyirlər ki, bəs partlayıcı əvvəlcə Moskvadan xüsusi qara kisədə Səudiyyə Ərəbistanındakı Rusiya səfirliyinə göndərilib. Ordan gəlib yetişib Qətərə. Əməliyyat əvvəldən axıracan ABŞ kəşfiyyatının nəzarəti altındaydı.

Partlayışdan dərhal sonra müqəssirlər həbsə alınıb sorğu-suala cəlb edilirlər. Görürlər sirkə çox tünddü... cinayəti boyunlarına alırlar. RF səfirliyindəki Aleksandr Fetisovu partlayışın memarı adlandırırlar. Məhkəmənin son qərarı qısa və sərt olur-ömürlük həbs cəzası.

Ruslar buna özünəməxsus cavab qaytarırlar tezliklə. Belarusdan Belqrada uçan Qətər güləşçilərini gömrük sənədlərində göstərilməyən 7000 min dollara görə həbs edirlər. Alver başlayır. Əməlli-başlı alver. Axır, Putin bütün bunlara yağlı bir qara nöqtə qoymağı bacarır. 22 mart tarixindən 23-nə keçən gecə Putinlə Qətər əmiri Hamad ben Xəlifə əl-Tani arasında baş tutmuş gərgin telefon söhbəti prosesə öz müsbət təsirini göstərir. Çox milyonluq sövdələşmə nəticəsində rus agentləri öz vətənlərinə buraxılırlar. 24 dekabr 2004-cü ildə, Vnukova hava aeroportunda hər iki rus agenti təntənəli şəkildə, zurna-balabanla qarşılanır.

Sonra...

Bu agentlərin izi itir.

***

Dafne Karuane Qaratsianın qətlində sözsüz, oxşar texnologiyalardan istifadə edilib. Orda da bir qara furqon var. Orda müşahidə kameralarında müqəssirlərin siması əks edilib. Orda da bu işi yüksək çinli bir səfirlik məmuru idarə edib yəqin ki. Başqalarını bu cinayətlərdə ittiham etmək əvəzinə xahiş edirəm öz gözündəki tiri görəsiz. Nəinki bizim gözümüzdəki qılı.

***

**Partladıcı maddələri indiyəcən daha böyük uğurla hələ də itlər, köpəklər aşkarlayır. "GRIPHON-32P" cihazlarına çox da bel bağlamayın. Elektrik siqnallarını dəf edən bu cihazlara axıradək ancaq səfehlər etibar edir.**

**Qısası, son ümidinizi itlərə bağlayın. Dafne Karuane Qaratsiyanın qətlini də belə getsə, insanlar deyil, köpəklər aşkarlayacaq.**

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 221 (6835) 26 oktyabr 2017



# Bank sektorunu böhrandan çıxarmaq üçün yol xəritəsi hazırlanır

## Ekspert: "İlk növbədə problemli kreditlərin bağlanması nəzərdə tutulmalıdır"

**Azərbaycanda bank sektoru üzrə yol xəritəsi hazırlanacaq. Bu barədə hökumətin Milli Məclisə təqdim etdiyi "2018-2021-ci illər üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri"ndə qeyd olunub.**

Sənəddə qeyd olunub ki, bank sisteminin kapitallaşması və likvidliyin təmin edilməsi, kapital dayanıqlığı bərpa olunmayan bankların restrukturizasiyası, likvidliyin verilməsi alətlərinin genişləndirilməsi, bank sektoru üzrə yol xəritəsinin hazırlanması, sistem əhəmiyyətli bankların tənzimləmə mexanizminin müəyyən edilməsi prioritet istiqamət kimi müəyyən edilib.

Qeyd edək ki, hazırda ölkənin bank sistemi 2 ildən bəri davam edən böhrandan qurtula bilməyib. Maliyyə Bazarlarına Nəzarət Palatası və hökumətin bankların sağlamlaşdırılması istiqamətində atdığı addımlar müəyyən müsbət effekt versə də, bütövlükdə sektorun böhrandan çıxması mümkün olmayıb. Bir tərəfdən, banklarda likvid vəsaitlərin artdığı deyilir. Belə ki, **Azərbaycan Banklar Assosiasiyasının (ABA) prezidenti Zakir Nuriyevin** dediyinə görə, iki devalvasiyadan sonra dövlətin qəbul etdiyi qərarlar nəticəsində nağdsız hesablaşmalar birmənalı şəkildə artıb: "5,2 milyard manat nağd likvid vəsait və 1 milyard manata yaxın qiymətli kağızlar üzərinə yerləşdirən vəsaitləri nəzərə alsaq, bank sektorunda qısa və uzunmüddətli olmaqla ümumilikdə 6 milyard manatdan çox likvid vəsait yaranıb".

Digər tərəfdən isə maliyyə-kredit təşkilatları ciddi müştəri problemi ilə üzləşiblər. Azərbaycan Mikromaliyyə Assosiasiyasının İdarə Heyətinin sədri Süleyman Kələşovun verdiyi məlumata görə, 2015-ci ildə mikromaliyyə təşkilatlarının 600 min istifadəçisi olub. 2016-cı ildə mikromaliyyə təşkilatlarından borcalanların sayı 298 minə qədər, 2017-ci ildə isə 118 minə qədər azalıb. Mikromaliyyə təşkilatlarının kredit portfeli 2015-ci ildə 348 milyon dollar olub. 2017-ci ildə bu rəqəm əhəmiyyətli dərəcədə azalaraq 80,1 milyon dollara düşüb.

Bu şəraitdə kreditləşmə kəskin şəkildə azalıb. Belə ki, əgər bu ilin yanvar ayında ölkə üzrə ümumi kredit portfeli 16 milyard 705 milyon manat idisə, bu rəqəm sentyabrda 12 milyard 376 milyon manata qədər azalıb. Yalnız bu ilin 8 ayında Mərkəzi Bankın rəsmi statistikasına əsasən ümumi kredit portfeli 4 milyard 329 milyon manat azalıb. Eyni zamanda problemli kreditlərin sayı və həcmi artıb. Əgər ötən ilin dekabr ayında problemli kreditlərin həcmi 1 milyard 472 milyon manat idisə, bu rəqəm sentyabrın əvvəlində 1 milyard 824 milyon manata çatıb. Bu, 8 ay ərzində problemli kreditlərin həcminin 352 milyon manat artması deməkdir.

**Bank sektorunu bu mürəkkəb vəziyyətdən çıxarmaq üçün yol xəritəsində hansı tədbirlərin əksini tapması daha məqsədəuyğun olardı? Suala cavab verən iqtisadçı-ekspert Pərviz Heydərov bildirir ki, əslində banklarda likvid vəsaitlər elə də yüksək deyil:** "Rəqəm yüksək deyilir, amma reallıqda likvid vəsaitlərin həcmi azdır. Əvvəla, ona görə ki, bankların əmanət qəbul etmək imkanları çox məhduddur. İkincisi, xarici maliyyə institutlarından əvvəlki kimi rahatlıqla kredit ala bilmirlər. Xarici maliyyə-kredit təşkilatları bizim banklar üçün kredit faizlərini qaldırıblar. Neft gəlirləri çox olanda buradan kim getsə, rahatlıqla kredit ala bilirdi. Amma indi, baxmayaraq ki, xarici valyuta ehtiyatlarımız var, xarici maliyyə qurumları əvvəlki kimi səxavətlilik nümayiş etdirmirlər - şərtləri ağırlaşdırıblar, faizləri qaldırıblar. Üçüncü bir səbəb bankların vəsait cəlb etdiyi Mərkəzi Bankın uçot dərəcəsini 15 faizə qaldırmasıdır. Bu faizlə vəsaiti cəlb edən bank onu neçə faizlə vətəndaşa, sahibkara versin? Yəni likvid vəsaitlər çox olsa belə, onu yerləşdirmək imkanı yoxdursa heç bir əhəmiyyəti qalmır. Sonra da deyirlər, kredit faizləri niyə yüksəkdir".

**Ekspertin sözlərinə görə, hazırda ölkədə kreditə tələbat minimum səviyyədədir:** "2012-ci ilədək bankların kredit resurslarını yönəltdiyi əsas istiqamət istehlak kreditləri idi. Həmin ildən bunu məhdudlaşdırdılar. 2014-cü ildən isə neftin qiymətinin düşməsi ilə əlaqədar olaraq bankların digər vəsaitləri də məhdudlaşdı. Bununla da bank sistemində əsası çoxdan qoyulmuş olan dərin yara üzə çıxdı. Birinci bu, özünü Beynəlxalq Bankda büruzə verdi. Ümumiyyətlə, istehlak kreditləşməsi üzərində qurulmuş kredit siyasətinin keyfiyyətli saymaq qeyri-mümkündür. Hazırda isə heç istehlak kreditləşməsi də yoxdur".

### Vaxtı keçmiş kreditlər banklar üçün Domokl qılıncına çevrilib

**P.Heydərov deyir ki, iqtisadiyyatın kreditləşməsində müsbət dönüş yaratmaq üçün 6 milyard manat likvid vəsait çox cüzi bir məbləğdir:** "Bu, orta və uzunmüddətli dövr üçün çox aşağı bir məbləğdir. Banklarla bağlı hər hansı sənəd hazırlanarkən ilk növbədə vaxtı keçmiş kreditlər probleminin həlli nəzərə alınmalıdır. Bu kreditlərin həcmi 2 milyard manata yaxınlaşır. Bu kreditlərin tam bağlanması təmin olunmalıdır. Bunu da yalnız borcluların üzərinə qoymaq olmaz. Burada 3 tərəf birgə iştirak etməlidir: hökumət, Mərkəzi Bank və borclular. Borc bağlandıqdan sonra banklara maliyyə dəstəyi verilməlidir: baxmayaraq ki, inflyasiya təzyiqini artıracaq, Mərkəzi Bank uçot dərəcəsini aşağı salmalıdır. Düzdür, Mərkəzi Bankın uçot dərəcəsinin bankların tətbiq etdiyi kredit fazilərinə hər hansı təsiri yoxdur: dərəcə 7-8 olanda da kredit faizləri 25-27 idi, 15 olanda da eynidir. Amma real iqtisadi şəraitdə belə olmamalıdır. Baxın, necə olur ki, Amerika Ehtiyat Sistemi uçot dərəcəsini 0,25 faiz dəyişiklik edir və bu, dərhal dolların kursunda əksini tapır. Eləqə belə olmalıdır. Bizdə isə banklarla Mərkəzi Bank arasında əlaqə yoxdur".

**Müsahibimizin sözlərinə görə, banklara maliyyə dəstəyi Neft Fondu vəsaitləri hesabına verilməlidir:** "Gələn il üçün fond vəsaitlərindən büdcəyə transferti 6 milyard manatdan 9,2 milyard manata qaldırıblar. Bu vəsaiti büdcə vasitəsilə pensiya və maaşların ödənilməsinə yönəltməklə iqtisadi aktivliyi artırmaq mümkün olmayacaq. Həmin vəsaitin cüzi bir hissəsini banklara vermək, sahibkarlıq mühitini yaxşılaşdırıb iqtisadi aktivliyi bərpa etmək lazımdır. Yəni əhalinin pulu - əmanəti ilə bank bank olmayacaq".

**Ekspert onu da qeyd edir ki, iqtisadi aktivliyi artırmaq üçün sahibkarlıq mühitinin yaxşılaşdırılması, maliyyə dəstəyi ilə yanaşı digər stimullaşdırıcı tədbirlərə də ehtiyac var:** "Sahibkarlara vergi güzəştləri olmalıdır. İndi Dövlət Gömrük Komitəsi hökumətə təklif edir ki, idxal rüsumları qaldırılsın. Bunu təklif edənlər daxildə qiymətlərə təsirini hesablayıblarmı?"

❑ Dünya SAKİT

# Neftin qiyməti ilə bağlı ziddiyyətli proqnozlar

## "Qara qızıl" ucuzlaşacaq, yoxsa bahalaşacaq?



**Neftin növbəti illərdəki qiyməti ilə bağlı proqnozlar heç də nikbin deyil. Azərbaycan hökuməti də proqnozlarında qəbul edib ki, neft qarşıdakı 4 ildə 40 dollara qədər ucuzlaşacaq.**

Hökumətin proqnozuna əsasən, 2017-ci ildə dünya bazarında neftin 1 barelinin orta qiyməti 50 dollar təşkil edəcək. Bu, 2018-2021-ci illər üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərində əksini tapıb. Hökumətin proqnozlarına görə, 2018-ci ildə "qara qızıl"ın orta qiyməti 45 dollar olduğu halda, 2019, 2020 və 2021-ci illərdə bu rəqəm 40 dollar olacaq.

Qeyd edək ki, 2018-ci ilin dövlət büdcəsi gəlirlərinin hesablanması zamanı neft gəlirlərinin hesablanmasında neftin ixrac qiyməti 45 dollar səviyyəsində qəbul edilib.

Bəs görəsən, ekspertlər bu barədə nə düşünür? Onlar hökumətin proqnozları ilə razıdırlarmı?

**Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, neftin qiymətində yaxın vaxtlar üçün artım gözlənilir:** "Mən BP-nin baş iqtisadçısı Vladimir Drebentsovun keçirdiyi görüşdə iştirak edirdim, o tamamilə əks fikirlər səsləndirdi. Qeyd etdi ki, yaxın dövrlər üçün neftin qiymətinin artımı müşahidə olunacaq. Bu da bazarda tələbin artması ilə əlaqədardır. Ona görə də neftin qiymətinin tədricən artması müşahidə olunacaq. Reallıq bundan ibarətdir. Vladimir Drebentsov daha maraqlı bir açıqlama verdi ki, 2019-cu ildən neftin qiymətlərinin stabilləşməsi gözlənilir. İndiki qiymətlərə nisbətən daha yüksək qiymət və o qiymət çərçivəsində stabillik olacaq. Ona görə də hökumətini həmin proqnozları müvəqqəti bir dövr üçün ola bilər. Necə ki, cari ilin avqust ayında neftin qiyməti birdən-birə 50 dollardan aşağı düşdü. Ancaq son 3 ayda qiymət 56-57 dollar civarında dəyişir".

**İqtisadçının sözlərinə görə, büdcədə neftin qiyməti ilə bağlı hər hansı problem yaranacağı gözlənilmir:** "Azərbaycan dövlət büdcəsi proqnozlaşdırılarkən gələn il üçün orta qiymət 45 dollardan götürülüb. Biz isə bu il üçün neftin orta qiymətinin 53 dollardan aşağı olacağını gözləmirik. Gələn il bu qiymət təxminən 5 dollar aşağı düşərsə, yenə də büdcə üçün çətinlik yaratmayacaq".

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov isə qeyd etdi ki, neftin qiyməti ilə bağlı beynəlxalq maliyyə qurumlarının proqnozları da müxtəlifdir:** "Mən hesab edirəm ki, yaxın illərdə neftin qiyməti 45-50 dollar səviyyəsindən aşağı düşməyəcək. Çünki qiymətin çox aşağı düşməsi neft hasilatçısı olan ölkələrə sərf eləmir. Həmçinin OPEK də bu durumdan narahatdır, onlar da neftin kəskin ucuzlaşmasını istəmirlər. O baxımdan, neftin qiymətinin 45 dollardan aşağı düşəcəyinə inanmıram. Dövlət büdcəsinin neftin qiyməti ilə bağlı problem yaşayacağını gözləmirəm. Çünki hazırda qiymət 60 dollara yaxınlaşır, bu proses davam edəcək. Neftin qiyməti ən azı 50-55 dollar səviyyəsində qorunub saxlanacaq. Çünki Rusiyaya da, Amerikaya da sərf edir. Lakin bizim üçün əsas məqsəd 2018-ci ildə Azərbaycanda bank sektorudur. Bu sektoru normal inkişaf etdirə bilsək, əhali ilə banklar arasında münasibətləri normallaşdıra bilsək, problemimiz olmayacaq. Hökumət artıq öz öhdəsinə düşənlərdən bir qismini yerinə yetirib, su, qaz işıq, yol - bu məsələlər həll edilib. İndi əsas məsələ bankla əhali arasında olan problemdir. Faizlər aşağı düşməlidir, problemli kreditlər həllini tapmalıdır ki, çətinlik yaşanmasın".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 221 (6835) 26 oktyabr 2017

# Leş ət mafiyası yenə iş başında

## Onlarla mübarizə niyə effekt vermir?

**Leş ət mafiyası yenidən iş başındadır. Belə ki, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə Balakən rayonunda mənşəyi məlum olmayan külli miqdarda ətin satıldığı barədə əməliyyat məlumatı daxil olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Baş İdarənin əməkdaşları tərəfindən həyata keçirilən təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində rayon sakini Fəxrəddin Həmzətov çəkisi 500 kiloqrama yaxın mənşəyi məlum olmayan əti satmaq istəyən zaman saxlanılıb.**



Araşdırma zamanı məlum olub ki, saxlanılan şəxs Balakən, eləcə də ətraf bölgələrdən əldə etdiyi xəstə atları kəsərək həmin ətlərin iribuynuzlu mal əti adı altında Bakı şəhərində satışını təşkil etmək istəyib. Kəsilmiş at cəmdəklərindən götürülən nümunələr laborator müayinəyə göndərilib. Ekspert rəyi ilə müəyyən edilib ki, aşkar edilən ət istifadəyə tam yararsızdır və insan sağlamlığına ciddi təhlükə yarada bilər. Qeyd edilən faktla bağlı toplanmış materiallar prosessual qərar qəbul edilməsi üçün Baş İdarənin İstintaq Şöbəsinə göndərilib.

Zaman-zaman mətbuatda bu cür məlumatlar yer alır. Yarım ton at ətinin satışa aparılarkən saxlanılması o deməkdir ki, bazarda bu cür ətlərə tələbat var və onlar heç də həmişə hüquq-mühafizə orqanları tərəfindən saxlanılmır. Diqqətdən yayınan və "məhsul"unu bazara çıxartmağa nail olan işbazlar da az deyil. Nəticədə bu cür ətlər ət məhsulları istehsalçıları tərəfindən alınır və kolbasa sexlərinə, kafe və restoranlara verilir.

Bəs ət mafiyasının kökünü necə kəsmək olar? Necə etmək olar ki, onların bu fəaliyyətinə tamamilə son qoyulsun?

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq Komitəsinin üzvü Vahid Əhmədov "Yeni Müsavat"a açıqlamasında isə qeyd etdi ki, bu sahədə qanunvericiliyin sərtləşdirilməsinə və nəzarətin artırılmasına ehtiyac var:** "Bu insanlar nə haqla o ətləri insanlara yedizdirirlər? Hamımız müsəlmanıq, at ətini, murdar ətləri, ölmüş heyvanların ətini gətirib insanlara yedizdirirlər. Bunun qarşısını almağa maksimum çalışırlar. Hüquq-mühafizə orqanları , Kənd Təsərrüfatı Nazirliyinin müvafiq idarələri çalışırlar ki, bu halların qarşısını alsınlar. Ancaq bu halları ortaya çıxartmaq çox çətindir. İnsan özü də başa düşməlidir ki, pul xətrinə başqa insanları zəhərləmək olmaz. Bu sahədə sərt qanunlar var, ancaq onları daha da sərtləşdirməyə ehtiyac var ki, zərərçəkənlər olmasın. Bu ətlər daha çox əhaliyə ictimai iaşə obyektləri vasitəsilə yedizdirilir, leş ət satanlar kafe və restoranlarla əlbir işləyirlər. Bu obyektlərin sahibləri də həmin ətlərdən istifadə etməməlidirlər. Birincisi, hüquq-mühafizə orqanları bu sahədə çox ciddi işləməlidirlər, yerli sahə müvəkkilləri bu işdə fəal olmalıdırlar. Çünki onlar hər şeydən məlumatlı olurlar. İkincisi də, bu məsələ Kənd Təsərrüfatı Nazirliyinin birbaşa səlahiyyətində olan məsələdir. Onlar normal işləyirlər, keyfiyyət məsələsinə nəzarət edirlər. Ancaq hu sahədə işi gücləndirmək lazımdır".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə "Yeni Müsavat"a danışarkən qeyd etdi ki, leş ətinin bazara ayaq açmasının bir neçə səbəbi var:** "Birinci səbəbi odur ki, hökumətin normal istehlakçı siyasəti yoxdur. Hökumət birtərəfli siyasət aparır, kim nə istəyirsə satır, istehlakçıdan pul çıxarır. Dövlət nə qədər ki, üzünü istehlakçılara doğru çevirməyib, vəziyyət belə də olacaq. İkincisi, dövlət orqanları arasında bu işə qarşı vahid və sinxron şəkildə aparılan bir mübarizə yoxdur. Ən effektiv mübarizəni DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi aparır. Onlar bu faktları sənədləşdirir, ekspertizaya verir, cinayət işi qaldırıb lazımi addımlar atır. Lakin Baytarlıq Komitəsi bunu müəyyən etdikdən sonra həmin şəxsi 200 manat cərimə edib buraxır. Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi televiziyada çıxış edir ki, it ətini də, eşşək ətini də satmaq olar, bir şərtlə ki, üstünə adları yazılsın, istehlakçılar aldadılmasın. Bu anormal haldır. Vahid dövlət siyasəti yoxdur. 20 ildir ki, Azad İstehlakçılar Birliyi bu hallarla mübarizə aparır. Ölkədə böyük "leşyığanlar şəbəkəsi" var. Hər biri leş ətləri satır və bu ətlər ən prestijli yerlərə də gedib çıxır. Bu məsələdə əsas mübarizəni Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi aparsa, effektli nəticə əldə etmək olar".

Ekspertin sözlərinə görə, leş ətləri hər yerdə satıla bilər: "Normal ət satışı yerlərində sağlam ətlərin içinə qarışdırılıb satıla bilər. Onların müəyyən edilməsi çox çətindir. Düzdür, ölkədə bunu müəyyən etmək üçün laboratoriya var, ancaq nazirlik rəsmisi icazə verir ki, hər cür ət satmaq olar. Ona görə də iş adamları bundan istifadə edirlər. Respublikanın hər yerində yerli orqanlara tapşırıq verilməlidir ki, leş əti satanların qarşısı alınsın. Ətin qiymətinin bahalaşması da bazarda ucuz ətlərə tələbatı artırıb. Bazarda defisit yarananda keyfiyyətsizlik meydana çıxır. Tələb təklifi üstələyəndə keyfiyyətsiz və təhlükəli mallar meydana çıxır. Bunun qarşısını almaq üçün dövlət radikal addımlar atmalıdır. Ölkədə qida təhlükəsizliyi agentliyinin yaradılması gözlənilir. Ancaq mən bu qurumun fəaliyyəti ilə bağlı da pessimist mövqedəyəm. Çünki orada heç bir iş aparılmır, ictimai müzakirə getmir. Ancaq qohum-əqrəba üçün iş yeri kimi istifadə olunur".

❑ **Nərgiz LİFTİYEVA**

# Yaşlı alim qadın klinikadan şikayət etdi

## Könül Zeynalova: "Pulumu aldılar, MRT etdilər, amma heç nə oxumaq mümkün olmadı, şikayət edəndə isə dedilər ki, həkimlər səni parçalayar"

**74 yaşlı alim Könül Zeynalova redaksiyamıza gələrək şikayətlənib. Xanım alim başına gələnləri bu cür qeyd edib:**

"Uzun müddət idi ki, onurğa sütunumda yaranmış problemdən əziyyət çəkirdim. Buna görə özəl klinikaların birinə müraciət etdim, hansı ki, həmin klinikaya İzraildən tanınmış həkim gətirilmişdi. Həmin həkim mənə bildirdi ki, müalicə almağım üçün "MRT" çıxartdırmalıyam. Həkimin verdiyi arayışla 2015-ci ilin aprel ayının 13-də N.Tusi adına özəl klinikaya müraciət etdim. Klinikaya daxil olar-olmaz nəzarətçi qolumdan tutub məni zorla kassaya apardı ki, ödəniş edim. Bu günə qədər bir çox özəl klinikalarda olmuşam, lakin bu cür davranış görməmişdim. Məlum oldu ki, "MRT" üçün klinikaya 607 manat ödəniş etməliyəm. Lakin buna imkanım çatmadığı üçün xahiş etdim və 150 manat endirimlə 457 manat ödədim. Klinikada 5-6 saat gözlədikdən sonra çəkilişlər edildi. Hətta həkim venama iynə vurarkən səhvən damara düşdü. Nəticədə qolum şişdi, həkimlər təcili qolumu sarıdılar. Nəticədə bu günə qədər barmaqlarımı yaxşı hərəkət etdirə bilmirəm. Beləliklə, "MRT" filmləri çəkildi".



**Şikayətçinin sözlərinə görə bəzi problemlər üzündən müalicəsini dayandırmalı olub:**

"Həmin ərəfədə anam dünyasını dəyişdiyi üçün müalicəmi bir müddətliyə dayandırmalı oldum. Daha sonra isə israilli həkim öz ölkəsinə geri döndü. Bir müddət sonra isə Bakıdakı Koreya klinikasına müraciət etdim. Koreyalı həkim mənim "MRT" filmlərinə baxanda mat qaldı. Bildirdi ki, filmlər kiçik yaşlı uşağın cızma-qarasına oxşayır və heç nə oxunmur. Bildirdi ki, ya çəkiliş zamanı tərpəniş olub, ya da ki, mütəxəssis yaxşı olmayıb. Buna görə də həkim tövsiyə etdi ki, yenidən çəkilişlər etdirim".

**Şikayətçi bildirir ki, film çəkilişlərinin yenilənməsi üçün klinikaya müraciət etdikdə hədə-qorxu ilə qarşılaşıb:**

"Məsələ ilə bağlı N.Tusi adına klinikaya zəng vurdum, vəziyyəti bildirdim. Telefona cavab verən əməkdaş bildirdi ki, "əgər sən bura gəlsən həkimlər səni parçalayar, çünki şikayət edirsən". Mən isə sakit halda bildirdim ki, məni həkimlə əlaqələndirsinlər. Lakin bu günə qədər zənglərim cavabsız qalır, ya da kobud sözlərlə qarşılaşıram".

**Könül Zeynalova qeyd edi ki, məsələ ilə bağlı İqtisadiyyat Nazirliyinə şikayət edib:**

"Ordan isə mənə yazılı surətdə cavab verildi ki, "şikayətiniz Dövlət Xidməti tərəfindən qanunvericiliyə uyğun araşdırılmış, "Tusi" klinikasına bu günə qədər heç bir yazılı və ya şifahi şəkildə müraciət etməmisiz. Həmçinin "MRT" filmlərinin saxlanılma şəraitinə düzgün əməl olunmadığından keyfiyyətsiz hala düşə biləcəyini bildirmiş və bu barədə sizə ətraflı məlumat verilmişdir".

Bir daha qeyd edirəm ki, klinika film çəkilişlərini düzgün aparmayıb. Yeni çəkilişlər üçün imkanım yoxdur. Aidiyyəti orqanlardan xahiş edirəm, bu məsələdə hüquqlarımın qorunması üçün mənə köməklik göstərsinlər".

**Məsələ ilə bağlı "Yeni Müsavat"ın əməkdaşı Nəsrəddin Tusi adın özəl klinikanın da mövqeyini öyrənməyə çalışıb. Lakin klinikadan bildirilib ki, baş həkim yerində olmadığı üçün şikayətlə bağlı açıqlama verilməyəcək.**

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 221 (6835) 26 oktyabr 2017

# "Geomaqnit qasırğası zamanı iş rejimində dəyişiklik nəzərdə tutulmayıb"

## Sahib Məmmədov: "Bununla bağlı hər hansı qanun, göstəriş yoxdur"

**İki gündür ki, geomaqnit qasırğası başlayıb. Məlumdur ki, geomaqnit dalğalarından ən çox meteohəssas insanlar əziyyət çəkirlər. Sağlam insanlardan fərqli olaraq, risk qrupuna aid insanlar - xroniki ürək-qan-damar xəstəlikləri olanlar, ahıllar, uşaqlar gərginlikdən qaçmalı, yüngül qabaqlayıcı tədbirlər (həkim məsləhəti əsasında) görməlidirlər.**

Həkimlərin dediyinə görə, bu dalğalar bioloji hüceyrələrin iş prosesini pozur, qan təzyiqini yüksəldir və insanı haldan-hala salır. Bu üzdən onlar geomaqnit qasırğası zamanı açıq havada olmağı məsləhət görmür, mümkün qədər qapalı məkanda, ev şəraitində qalmağı tövsiyə edirlər.

Qeyd edək ki, kifayət qədər insanlar var ki, onlar açıq hava şəraitində çalışır və ya evlə iş arasında uzun bir yol getməli olurlar. Əmək Məcəlləsinin 233-cü maddəsinə uyğun olaraq, havanın temperaturu müsbət 41 dərəcədən çox olduğu hallarda açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılır. Həmçinin, havanın temperaturu selsi ilə mənfi 10 dərəcə və daha aşağı olduqda və eyni zamanda küləyin gücü 3 baldan artıq olduqda açıq havada bütün növ işlər dayandırılır və ya işçilərə isinmək üçün fasilələr verilir. İstehsalın fasiləsiz xarakterli olması ilə əlaqədar işi dayandırmağın qeyri-mümkün olduğu yerlərdə işin dayandırılması bir-birini əvəz edən növbələr müəyyən olunması ilə əvəz edilir. Növbələrin bir-birini əvəz etməsi həmkarlar ittifaqları təşkilatının razılığı ilə işəgötürən tərəfindən müəyyən olunur.



İlin soyuq vaxtında örtülü, lakin isidilməyən binalarda temperatur müsbət 14 dərəcədən aşağı olduqda, işçilərə fasilələr verilir və ya iş dayandırılır. Küləyin gücü 6 bal və daha artıq olduqda, quruda kranlarla görülən bütün növ işlər dayandırılmalıdır.

Maraqlıdır, bəs geomaqnit qasırğaları baş verən zaman iş qrafikində hansısa dəyişiklik olmalıdırmı?

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov bununla bağlı hər hansı qanun olmadığını bildirdi:** "İsti, soyuq və küləkli hava şəraitinə görə açıq yerdə işləyənlər üçün müəyyən temperatur həddinə çatdıqda, endikdə və ya qalxdıqda bu, xüsusi qaydalarla tənzimlənir. Əmək Məcəlləsinin tərkib hissəsi olan xüsusi qaydalar var. Bu qaydalar Əmək Məcəlləsində göstərilib. Hidrogen proseslər, Günəş şüaları nəticəsində yaranan maqnit qasırğası və yaxud digər hadisələrlə bağlı heç bir tənzimləmə yoxdur. Bu, o deməkdir ki, geomaqnit qasırğası zamanı əmək qanunvericiliyi ilə hansısa iş qrafikində bir dəyişkənlik nəzərdə tutulmur. Amma həmin zaman kiminsə səhhətində problem yaranarsa, o, müəssisənin aid olduğu və yaxud özünün yaşadığı poliklinikaya müraciət edib, əmək qabiliyyətinin müvəqqəti itirilməsi halı kimi ambulator müalicə və buna görə xəstəlik kağızı ala bilər. Başqa bir hal nəzərdə tutulmayıb".

Qeyd edək ki, geomaqnit qasırğasının oktyabrın 26-dək davam edəcəyi gözlənilir. Hazırda geomaqnit indekslərindən biri olan Kp-nin qiyməti 2 ilə 3 arasında dəyişir (maksimum 9 olur), lakin getdikcə artacaq. Geomaqnit qasırğasının maksimal şkala G5-dir və bu cür şkalaya uyğun qasırğalar nadir hallarda, 11 ildə 1-2 dəfə baş verir.

❑ **Günel MANAFLI**



### Metroda vaqonun qapısını tutub saxlayanlar 50 manat cərimələnəcək

**"Metroda qapıları saxlayıb qatarın hərəkətinə mane olan kifayət qədər sərnişin var".**

Bunu "Report"a açıqlamasında "Bakı Metropoliteni" QSC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nəsimi Paşayev deyib.

O bildirib ki, gün ərzində metrodan 700 mindən çox sərnişin istifadə edir: "Xüsusilə pik saatlarda qatarın qapılarının sərnişinlər tərəfindən saxlanması məsələsinə nəzarət etmək çox çətindir".

N.Paşayevin sözlərinə görə, sərnişinlər özləri qapıları saxlamaqla həm qrafiki pozduqlarını, həm də qapılara zərər yetirdiklərini başa düşməlidirlər: "Başa düşürük ki, pik saatlarda sərnişin çox olur, hamı qatara minmək istəyir. Ancaq nəzərə almaq lazımdı ki, qapı saxlamaq çıxış yolu deyil".

Şöbə rəisi qeyd edib ki, qatarın qapısının saxlanmasına görə İnzibati Xətalar Məcəlləsində 50 manat cərimə nəzərdə tutulub: "Bu məsələyə polis nəzarət edir".

# Fəxri adlar lazımdırmı?

**Fərəc Quliyev:** "Əmək, təhsil, hərbi sahədə fərqlənən insanları dəyərləndirmək lazımdır"

**Sabir Rüstəmxanlı:** "Bu ənənə yaranıbsa, niyə ondan imtina etməliyik?"

**Vüqar Əhməd:** "Mükafatlar həm maddi, həm də mənəvi cəhətdən yaxşıdır"

**Əhməd Qəşəmoğlu:** "Görünən budur ki, cəmiyyətdə də buna bir tələbat var"

**Sovet dövründə olduğu kimi bu gün də ölkəmizdə incəsənət, mədəniyyət, ədəbiyyat sahəsində fəxri adlar, ordenlər verilir. Məlum olduğu kimi, sovet dönəmində xalq artisti, əməkdar artisti, əməkdar incəsənət xadimi, SSRİ xalq artisti, xalq şairi və sairə bu kimi fəxri adlar "yuxarıdan" göstərişlə verilirdi. Fəxri adı almış şəxslər bununla fəxr edir, daha da ruhlanırdılar.**

Məlumata görə, ilk xalq şairi adına Səməd Vurğun layiq görülüb. Məhz 1956-cı ildə onun ölümündən sonra yazıçılara, şairlərə fəxri adlar verilməyə başlanıb. Daha sonra isə sovet hakimiyyəti altında olan ölkələrdə bu ənənə davam etdirilib.

Təbii ki, fəxri adlar həm də təqaüd, bəzən ev, maşın deməkdir. Bu gün xalq artisti, xalq yazıçısı, xalq şairi, xalq rəssamı fəxri adını alan incəsənət və mədəniyyət nümayəndələri ayda 100 manat təqaüd alır, əməkdar elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar artisti, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi, əməkdar müəllim, hətta əməkdar həkim, memar, jurnalist ayda 60 manat təqaüd alırlar.

Lakin bununla belə, cəmiyyətimizdə sovet dövründən sonra da fəxri adların verilməsi birmənalı qarşılanmır. Hətta fəxri ad almış insanlar belə bəzən bu ənənənin davam etdirilməsini gərəksiz sayır. Çünki dünyanın inkişaf etmiş ölkələrində, o cümlədən qardaş Türkiyədə bu cür adlar yoxdur. Maraqlıdır ki, qardaş Türkiyədə heç "Milli qəhrəman" fəxri adı verilmir. Yalnız şəhid statusu var.

Yaxud Pavorotti, Xose Karears və bu kimi dünya şöhrətli ifaçıların heç də xalq artisti və ya əməkdar artisti kimi fəxri adları olmayıb. Onlar yalnız öz adları ilə dünyada öz möhürlərini vurmuş ifaçılardır. Hətta sovetlər birliyi dağıldıqdan sonra bir çox ölkələr bu cür ənənəyə son qoydu. Bu baxımdan, ölkəmizdə də çoxları fəxri adların ləğv olunmasını, əvəzində yaradıcı insanlara kifayət qədər maddi yardım ayrılmasını tövsiyə edirlər.



**Bəs fəxri adlar lazımdırmı? Deputat Fərəc Quliyev mövzuya bu cür şərh bildirdi:** "Biz müharibə şəraitində olan ölkəyik. Ona görə də bizdə şərtlər fərqlidir. Hesab edirəm ki, istər əmək, istərsə də təhsil, hərbi sahəsində fərqlənən insanları dəyərləndirmək lazımdır. Həmçinin, fikrimcə, fəxri adlar verilərkən bu, quru ad kimi qalmalı deyil. Məsələnin maddi tərəfi də düşünülməli, ona uyğun olaraq mükafatlar da verilməlidir. Mən insanlara sağlıqlarında qiymət verilməsinin tərəfdarıyam".

**Xalq şairi Sabir Rüstəmxanlı da fəxri adların gərəkliyini vurğuladı:** "Mən xalq şairi olduğum üçün hesab edirəm ki, fəxri adlar lazımdır. Yəni mənim aldığım bu addan imtina etmək fikrim yoxdur. Elə bir qayda-qanun yoxdur ki, dünyada fəxri adlar olsun və ya olmasın. Hər dövlət öz ənənələrinə, milli maraqlarına uyğun olaraq məsələyə yanaşır. Bu ənənə yaranıbsa, niyə ondan imtina etməliyik? Əgər düz verilmirsə, nazirliklərin tərəfkeşlikləri varsa, bu ayrı məsələdir. Bu problemi düzəltmək lazımdır. Yoxsa ki, qırıb atmağın heç bir mənası yoxdur. İnsanlar fəaliyyət göstərir və sənətə gəlir. Onların içərisində fərqlənənləri həm millət, həm də dövlət seçir. Bu, iş stimuludur, yaşaya-yaşaya öz zəhmətinin bəhrəsinin həm də rəsmən etiraf olunması, rəsmiləşdirilməsidir. Ona görə də bu məsələdə hər şeyi pis yerə yozmaq doğru deyil".

**Əməkdar incəsənət xadimi, nəğməkar şair Vüqar Əhməd isə qeyd etdi ki, bir çox ölkələrdə fəxri adlar var:** "Türkiyədə isə yalnız bir fəxri ad var - dövlət sənətçisi. O da ömrünü xalq musiqisinə həsr edən ifaçılara verilir. Məsələn, İbrahim Tatlısəs kimi böyük ifaçıya o ad verilmir, çünki yad boğazlar edir. Bizdə fəxri adların verilməsi keçmiş sovet dövründən qalan bir ənənədir. Partiya ideologiyalarını, sosializmi, kommunizmi tərənnüm etmək üçün fəxri adlar verilirdi. Hətta qeyd edim ki, bizim xalq yazarımız Anar da bəzən bildirir ki, fəxri ada ehtiyac yoxdur. Halbuki özü fəxri ad alıb. Amma mükafatlar həm maddi, həm də mənəvi cəhətdən yaxşıdır. Yazıçı həvəslənir, qrant alır, beynəlxalq mükafatlar alır. Məsələn, Nobel mükafatı ən şərəfli addır. Doğrudur, bəzən orda da şahidi oluruq ki, dəxliliyi olmayan, tanınmayan bir yazara həmin mükafat verilir. İstərdim ki, bir gün Azərbaycandan da kiməsə Nobel mükafatı verilsin".

**Sosioloq Əhməd Qəşəmoğlu da qeyd etdi ki, ölkəmizdə fəxri adların verilməsi sovet dövründən qalma ənənədir:** "Sanki insana daha da status verilir, qiymətləndirilir. Görünən budur ki, cəmiyyətdə də buna bir tələbat var. Amma hesab edirəm ki, bu adlar olmasa, daha rahat olar. Məsələn, Musa Yaqubun, Ramiz Rövşənin bu gün fəxri adları yoxdur. Amma onları oxuyanlar kifayət qədərdir. Bəlkə də burada hansısa meyarlar dəqiqləşdirilməlidir. Meyarlar qarışdırıldığı üçün düşünürəm ki, bu cür fərqləndirmələr artıq köhnəlib. Sovet dövründə hər şey aydın idi və sovet ideologiyasına tam cavab verilən əsərlər yazılırdısa, həmin titullar verilirdi. Amma indi o tələbat da yoxdur. Lakin qeyd edim ki, fəxri adların verilməsi bir tərəfdən həm də sosial dəstəkdir. Məsələnin bu tərəfinə baxanda, bəli, fəxri adlara ehtiyac var. Hazırda gərgin cəmiyyətdəyik, bununla da istedadlı insanlarımıza şərait yaradılır".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT

Son səhifə

N 221 (6835) 26 oktyabr 2017

# Makiyaj edilən qadını oğlu tanımadı

Amerikada professional stilist tərəfindən görüntüsü dəyişdirilən qadını öz oğlu belə tanımayıb.

Maykl Çoyersin həyatında kiçik dəyişikliklər etməyə başlayıb. 48 yaşındakı ana sərt bir dieta ilə tam 18 kilo verib. İllər sonra dostları ilə görüşməyi planlaşdırıblar. Ardınca Maykl "Today" adlı televiziya verilişində seçilən bəzi adamlara pulsuz stil dəyişikliyi ediləcəyini eşidən kimi dərhal müraciət edib və müraciəti qəbul olunub.

Maykl artıq saç düzümünü dəyişməyə xüsusi ehtiyac duyub. Lazımi proseduralardan sonra Maykl oğlu Daniel və tamaşaçıların qarşısına çıxmağa hazırlanıb. Studiyaya gəldiyi zaman Danielin gözləri bağlı olub. Gözlərini aça biləcəyini dediklərində isə qarşısında dayanan anasını tanımayıb.



# Hakim hökmü oxudu, sonra nikah kəsdi

**ABŞ-ın Kaliforniya ştatında qətllə bağlı məhkəmə prosesi kuryozla başa çatıb. Hakim hökmü oxuyandan cəmi bir dəqiqə sonra nikah mərasimi keçirib və müttəhimi ailə qurması münasibətilə təbrik edib. Amma bəylə gəlinin qovuşması 50 il sonraya qalıb. Belə ki, 36 yaşlı D.Desbroun qətldə suçlanaraq 53 il müddətinə azadlıqdan məhrum edilib. Hökm oxunandan dərhal sonra hakim Patrisiya Kukson zaldakıların tam əksəriyyətinin çölə çıxmasını tələb edib. Zalda yalnız müttəhimin valideynləri və bacısı, habelə onun nişanlısı, 33 yaşlı Destininin qohumları qalıblar. Hakim Kukson nikahı rəsmiləşdirib. Bundan sonra Patrisiya Kukson təzə bəylə gəlinə evində bişirdiyi tortu verib.**

Denn və Destini 20 il əvvəl tanış olublar. Destini hamilə qalandan sonra onlar ayrılıblar. Bu ilin yanvarında isə Destini oğlunun xahişi ilə Denni facebook-da tapıb. Fəqət, həmin vaxt Denn artıq həbsdə idi. Destini məhkəmənin hər iclasına qatılmağa başlayıb və proses zamanı Denn oğlunun 33 yaşlı anasına evlənməyi təklif edib.





## Masaj olunan kirpi - keçəl imiş

**İngiltərənin Norfolk qraflığında maraqlı bir pasient var - keçəl kirpi. Britaniyanın "The Sun" qəzeti masaj prosesinin videosunu saytda yayımlayıb. Videodan da görünür ki, masajçılar kirpinin iynələrinin çıxması üçün onu masaj edirlər. Nelson ləqəbli kirpi vəhşi təbiətdəki stress və ya travmaya görə iynələrini itirib. Hələlik veterinarların cəhdi uğursuzluqla nəticələnib.**

2014-cü ildə ingilis veterinarlar boruya düşən və təmizlik materialları ucbatından iynələri tökülən başqa bir kirpini də eyni üsulla müalicə etmişdilər. Onu aloe geli ilə massaj edəndən sonra iynələri çıxmışdı.

## 61 yaşlı kişinin mədəsi spirt ifraz edir

**ABŞ-da yaşayan kişi spirtli içki içməsə də, sərxoş olur. 61 yaşlı kişinin mədəsi öz-özündən spirt ifraz edir. Qanında 0,37 faiz spirt çıxan kişi spirtli içki içməsə də, özünü sərxoş hiss etdiyini deyir. Həkimlər adı açıqlanmayan kişini 24 saat nəzarət altında saxlayıblar. Gün ərzində dietik yeməklər yeyən və yalnız su içən kişi nəzarət müddəti bitdikdən sonra da sərxoş olur. Həkimlər onun bütün vaxt sərxoş olduğunu və xəstəliyinin müalicəsi olmadığını deyiblər. Onun bədənindəki spirtin azalması üçün davamlı makaron, çörək, balıq, toyuq, kartof və pomidor yeməli olduğunu deyiblər. Əgər o, bu yeməklərdən başqa bir şey yeyərsə, bədənindəki spirtin miqdarı yenə artacaq.**

## Robot olsa da, cənazəsi var

**Amerika əsgərləri orduda istifadə etdikləri robotlarla duyğusal əlaqə yaradırlar. Hərbi əməliyyatlar zamanı mina tapan robotlara medal verilir, onlar xarab olduqda isə cənazə mərasimləri təşkil edirlər. Professor Culia Karpenter əsgərlər arasında araşdırma apardıqdan sonra onların robotlarla olan əlaqələri haqqda məqalə yazıb. Onun məqaləsində deyilir ki, əsgərlər daha çox mina tapan robotları sevirlər. Onlar xarab olduqda isə depressiyaya düşürlər, ağlayırlar və onlar üçün cənazə mərasimi təşkil edirlər. Əməkdar robotlara və hərbi əməliyyat zamanı xarab olan robotlara qəlb şəklində, müharibələrdə yüksək nəticə göstərən robotlara isə ulduz şəklində medallar verilir. Xarab olan robotlar üçün cənazə mərasimi keçirilir. Robotlar üçün bir neçə dəfə havaya atəş açılır.**




**QOÇ** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimdə özünüzü çox da üzməyəsiniz. Əks təqdirdə, səhhətinizlə bağlı xoşagəlməzliklər mümkündür. İstənilən mübahisədən uzaq olun. Əsasən istirahət edin.

**BUĞA** - Çox maraqlı bir gün yaşayacaqsınız. Bir tərəfdən hadisələrin zövqünüzlə uyğunlaşması, digər tərəfdənsə maraqlı insanlarla rastlaşmağınız ovqatınızı yüksəldəcək.

**ƏKİZLƏR** - Yeni görüşlər üçün səmərəli vaxtdır. Yaxşı olar ki, əvvəlcədən təyin edilmiş işgüzar sövdələşmələri təxirə salmayasınız. Məhəbbətdə səmimi olun və kənar təsirlərə baş qoşmayın.

**XƏRÇƏNG** - Bir qədər təzadlı məqamlar yaşayacağınız gözlənilir. Buna baxmayaraq, yeni işgüzar əlaqələrə başlamağınız daxili nikbinliyinizi artıracaq. Təcrübəli adamlardan yararlanın.

**ŞİR** - Dualarınızın sayını artırın, ziyarətgahlara gedin. Çalışın ki, Tanrıya zidd olan hərəkətlərə yol verməyəsiniz. Belə etsəniz, ağrı-acılarınız da sovuşub gedəcək. Uzaq yola çıxmayın.

**QIZ** - Astroloji göstəricilər gün ərzində səhhətinizlə bağlı problemlərin artacağını bildirir. Yaxşı olar ki, fiziki işləri təxirə salıb istirahətə üstünlük verəsiniz. Ac qalmayın.

**TƏRƏZİ** - Ola bilsin ki, çoxdan görmədiyiniz xeyirxah adamlarla rastlaşasınız. Belə olarsa, öz problemləriniz haqqında onlara danışmaq olar. Bu gün savab işlərinizin sayını artırın.

**ƏQRƏB** - Deyirlər insanın hər şeydən əli üzüləndə məhəbbət budağından yapışır. Ulduzlar da bu təqvim üçün sizə məhz həmin tövsiyələri təlqin edir. Qəlbinizi sevgisiz qoymayın, mərhəmət göstərin.

**OXATAN** - Bir qayda olaraq bu ərəfə şəxsi işlərinizdə əsaslı dönüş yaradır. Lakin bu, saat 14-dən sonra mümkün ola bilər. O vaxta qədərsə istənilən mübahisədən yayınmalı, ölçülü-biçili danışmalısınız.

**OĞLAQ** - Təxminən saat 15-ə qədər özünüzü təmkinli apara bilsəniz, gözlənilən təlatümlərdən qurtulacaqsınız. Sonrakı ərəfədə isə iki sürprizlə qarşılaşacaqsınız. Onların biri pulla bağlıdır.

**SUTÖKƏN** - Qeyri-adi heç nə gözlənilməsə də, gününüzü maraqlı etmək üçün canfəşanlığınızı artırmalısınız. Darıxdığınız adamların əhatəsində olun. Keçmiş problemlərdən danışıb özünüzü yormayın.

**BALIQLAR** - Kifayət qədər uğurlu gündür. İstər qarşılıqlı münasibətlərdə, istər perspektivli sövdələşmələrdə, istərsə də maliyyə uğurlarına yetişməkdə ulduzlar sizə yaxından yardımçı olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Polis ağac formalı geyiminə görə kişini saxladı

**Amerikanın Men ştatında polislər ağac formalı geyimdə olan kişini saxlayıblar. Buna səbəb onun həmin qiyafədə ikən nəqliyyatın hərəkətinə mane olması olub. 24 oktyabrda baş vermiş bu hadisənin videogörüntüləri artıq paylaşılıb. Bir sutka ərzində videoroliki 12 min istifadəçi bəyənib. Lenta.ru saytının xəbərinə görə, ağac qiyafəsində olan gəncin 30 yaşı var və adı Eşer Vudvortdur. Saxlanılan gənc hüquq-mühafizə orqanı əməkdaşlarının suallarına cavab verə bilməyib. Amma "ağac adam"ın yanındakı dostu bildirib ki, o, bu aksiya ilə yerli nəqliyyatın hərəkətini araşdırırmış.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100